34_27 IYUI-QARA.qxd 10/3/2024 11:14 PM Page 1

UNİKAL

№36 (2218) 4 oktyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Məktəblilərin kriminallaşma təhlükəsi böyüyür: Təhsildəki idarəçilik yetərsizliyi, yoxsa xaos...




Səh.5

## Prezident Cəbrayılla Zəngilanda açılış və təməlqoyma mərasimində

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar. "Unikal" xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür.*

Səh.3

## "Bu gün tərbiyə ilə bağlı həm ailələrdə, həm də məktəblərdə boşluqlar var"



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, son günlər məktəblilər arasında bıçaqlanma hallarının artmasının səbəblərindən, belə halların qarşısının alınması üçün müəllim və valideynlərin atmalı olduqları addımlardan, sosial şəbəkələrin belə hadisələrin...*

Səh.4

## Azərbaycan XİN-dən Litvanın xarici işlər nazirinə cavab



*Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2 oktyabr tarixli iclası zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlər tamamilə əsassız və qəbuledilməzdir. "Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi...*

Səh.9

## Azərbaycanda orta nikah yaşı niyə artır?



*Əvvəllər erkən nikahlar problem yaradırdısa, indi də orta nikah yaşının artması ciddi problemə səbəb olub. Azərbaycanda 2023-cü ildə rəsmi nikaha daxil olan kişilərin orta yaş həddi 30,2-yə, qadınların orta yaş həddi isə 25,2-yə yüksəlib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə...*

Səh.11

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:18 PM Page 2



# "300-500 manat verib yanında gəzdirdiklərindən deyiləm..." - Tolikdən Şəbnəm Tovuzluya mesaj



***"Şəbnəmi çox şişirtdik. Çox böyük səhv addımlar atdı. Bunlar mənə keçməz. Şəbnəmin səhnə stajının iki qatı qədər stajım var. Şəbnəm 10 ildir oxuyur, mən isə 24 ildir bu sahədəyəm. Ölkənin ən qaymaq müğənniləri ilə çalışmışam".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri prodüser-aparıcı Tarix Əliyev (Tolik) verilişində deyib. O, müğənnilər Şəbnəm Tovuzlu və Vəfa Şərifova arasındakı qalmaqaldan danışıb. Tolik bildirib ki, Vəfanın tərəfini tutmasına görə Şəbnəm onu hədələyib: "Toy bazarı üçün işləməmişəm. Mənə hədə-qorxu gəlmək lazım deyil. Qadın söhbətinə kişi girirsə, demək kişinin sözü keçmir. Şəbnəmdən incimişəm. Mən 300-500 manat verib yanında gəzdirdiklərindən deyiləm, bunlar mənə keçməz. Mənə hansısa yerdən zəng gəlməyi... Verilişimdə Şəbnəmi hamıdan üstün tutdum, amma bundan sonra olmayacaq".

Qeyd edək ki, Şəbnəm və Vəfa "Cənnətimsən" mahnısı üstündə mübahisə edib.

# "Azərbaycanın ən bahalı aktyoru idim" - Elməddin Cəfərov



***"2 il Türkiyədə qaldım işlədim. Pulundan razı idim, istədiyimdən artıq ödəniş edildi. Özəl maşın ayrılmışdı, hər şey yolunda idi".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri aktyor Elməddin Cəfərov "İncə səhər" verilişində deyib. O, Pandemiyadan əvvəl fəaliyyətini daha yaxşı olmasından söz açıb:

"Pandemiyadan əvvəl Azərbaycanda ən bahalı aktyor idim. Bütün təkliflər mənə gəlirdi. İrandan, Türkiyədən təkliflər dayanmırdı. Bir burulğan idi. Pandemiyadan sonra tam oturdu, dedim, dörd divar arasındakı Elməddin. Sakitləşdim".

Qadın-kişi münasibətindən danışan Elməddin "Kişilər hər zaman yanlış qadını seçir. Qadınlar isə hər zaman doğru kişini atırlar. Faciə isə buradan başlayır" sözlərini söyləyib.



## Ağamirzə: ""Youtube"dan, telefonlardan meyxanalarım silinsin"

***"Meyxanadan uzaqlaşsam, 6 ay yaşamaram. Allah verən nemətdir. Bəziləri deyirlər ki, yaşın keçib, meyxana demə. Allaha şükür, nə qədər gücümüz çatır, deyirik. Ümumiyyətlə, çox şeylərdən küsürəm, amma büruzə vermirəm. Sakitlik istəyirəm. Arzum budur ki, "Youtube"dan, telefonlardan meyxanalarım silinsin. Başqa bir adam olum".***

Bu sözləri tanınmış meyxanaçı Ağamirzə Məmmədov "ATV"də yayımlanan "7 tamam" verilişində deyib.

"Bir şey paylaşırsan, min cür şey yazırlar. Maşınımın yanında dayanıb yüksək sürətin əleyhinə meyxana deyirəm, altından yazırlar ki, maşınını reklam edir. Artıq inciməkdən keçib, çox şeydən küsmüşəm", - o bildirib.

## "Uşaqlar üçün darıxıram" - Emin



***Xalq artisti Emin Ağalarov oğulları ilə bağlı paylaşım edib.***

Sənətçi əkizləri Mikayıl və Əli ilə görüntülərini yayımlayıb. O, paylaşımına "Uşaqlar üçün darıxıram! Amma tezliklə görüşəcəyik" şərhini yazıb.

Qeyd edək ki, Eminin Əminə və Afina adlı iki qız övladı da var.

## Məşhur türkiyəli müğənni Bakıya gəlir



***Türkiyənin pop ulduzu Gülşen növbəti dəfə Bakıya gəlir.***

Sənətçi konsert üçün paytaxtımıza təşrif buyurur. Belə ki, Gülşen 2 noyabr tarixində tamaşaçı qarşısına çıxacaq.

## Sevda Yahyayevanın əri polisə müraciət etdi

***Müğənni Sevda Yahyayevanın həkim həyat yoldaşı Zakir Bayramov polisə müraciət edib.***

"Unikal" olay-a istinadən bildirir ki, bu barədə o, instaqramda video paylaşıb. Onun lentə aldığı sürücü qaydaları pozub və maşınl piyada keçidində saxlayıb.

Bundan sonr Z. Bayramov "Axı niyə bəzi sürücülər qaydaları pozmağı sevir? Niyə səhv olduğu halda piyadalarla bu cür davranır?", - deyə, bildirib.



34_27 IYUl-QARA.qxd 10/3/2024 11:20 PM Page 3



## Elçin Əmirbəyov İtaliya XİN başçısının müavini ilə görüşdü



***İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə İtaliyanın Azərbaycandakı səfirliyi məlumat yayıb.

"Regional səviyyədə mühüm məsələlərə nəzər yetirildi. İtaliya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yüksək səviyyəsi vurğulandı", - məlumatda vurğulanıb.

## Milli Məclisin Səhiyyə komitəsinin ilk iclası keçirilib



***Oktyabrın 3-də Milli Məclisin Səhiyyə komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib.***

"Unikal" xəbər verir ki, komitə sədri Əhliman Əmiraslanov iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini diqqətə çatdırıb. O, gündəliyin birinci məsələsi - Səhiyyə komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsi haqqında ətraflı məlumat verib. Bildirilib ki, sənədin hazırlanması zamanı ölkənin səhiyyə sahəsindəki cari vəziyyət, mövcud çağırışlar və prioritet istiqamətlər nəzərə alınıb. Həmçinin səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması, xəstəliklərin profilaktikası, ictimai sağlamlığın yaxşılaşdırılması və tibbi xidmətlərin əlçatanlığının təmin edilməsinə yönəlmiş strateji məqsədlər müəyyənləşdirilib.

İclasda komitə üzvləri iş planının müxtəlif aspektləri ilə bağlı fikirlərini bildirib və təkliflərini səsləndiriblər. Bundan başqa, səhiyyə xidmətlərinin optimallaşdırılması məsələləri də müzakirə edilib.

Sonra gündəliyə daxil olan "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirəyə çıxarılıb. Müzakirələr zamanı, qanun layihələrinin əhalinin sağlamlığının qorunması və tibbi xidmətlərin səmərəli şəkildə təmin edilməsi baxımından əhəmiyyəti vurğulanıb. Komitə üzvləri dəyişikliklərin tibbi sığorta sisteminin inkişafına, xidmətlərin daha əlçatan olmasına və vətəndaşların sağlamlıq hüquqlarının qorunmasına müsbət təsir göstərəcəyini vurğulayıblar. Həmçinin qanun layihələrinin müzakirəsində, tibbi sığorta sisteminin genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın artırılması, eləcə də əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının yaxşılaşdırılması məsələlərindən də danışılıb.

Daha sonra iclasda gündəliyə daxil olan sonuncu məsələ - Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb. Müzakirələr zamanı, komitə üzvləri qanun layihələrinin məqsədini və əsas müddəalarını detallı şəkildə analiz edərək Vergi Məcəlləsindəki dəyişikliklərin vergi sisteminin daha səmərəli və şəffaf işləməsinə xidmət edəcəyini vurğulayıblar. Həmçinin sosial sığorta və tibbi sığorta qanunlarına edilən dəyişikliklərin vətəndaşların sosial təminatını artıracağı və tibbi xidmətlərin keyfiyyətini yüksəldəcəyi bildirilib.

İclasda müzakirə olunan qanun layihələrinin əhəmiyyətinin vurğulanması ilə yanaşı, komitə üzvləri tərəfindən atılacaq addımlarla bağlı konkret təkliflər irəli sürülüb.

Beləliklə, iclas parlamentin Səhiyyə komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının təsdiq edilməsi ilə, həmçinin gündəlikdəki digər məsələlərin məhsuldar və məqsədyönlü müzakirələri ilə yekunlaşıb.

# Anar Məmmədova 1,4 milyon manatlıq böyük şok

### Sabiq nazir oğlunun Londondakı biznesinin başı üzərində "qara buludlar" getdikcə sıxlaşır - İlginc iddialar!



***Sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus Böyük Britaniyanın paytaxtı Londonda fəaliyyət göstərən KFC restoranlar şəbəkəsi növbəti maliyyə hesabatını açıqlayıb.***

Səhmlərinin 75%-i Anar Məmmədova məxsus olan və KFC restoranlar şəbəkəsini idarə edən "B.J.R. Foods Limited" şirkəti 2023-cü ili 629 min 446 funt-sterlinq (1,4 milyon manat) zərərlə başa vurub.

Qeyd edək ki, Londonda məşhur restoranlar şəbəkəsi olan KFC françayzinqinə sahib olan "B.J.R. Foods Limited" şirkətinin 75%-lik payını Anar Məmmədov 23 iyul 2021-ci il tarixində satın alıb.

Anar Məmmədov "B.J.R. Foods Limited" şirkətinin səhmlərinə sahib olduqdan sonra şirkət zərərlə işləməyə başlayıb. Belə ki, "B.J.R. Foods Limited" şirkəti 2021-ci ili 3 milyon 244 min 762 funt-sterlinq mənfəətlə başa vurduğu halda, 2022-ci ildə xalis zərəri 1 milyon 182 min 13 funt-sterlinq olub.

Onu da bildirək ki, səhmlərinin 75%-i Anar Məmmədova məxsus olan bu şirkətə hazırda Böyük Britaniya vətəndaşları 1970-ci il təvəllüdlü Zafar Abbasi və 1967-ci il təvəllüdlü İqbal Sulemani rəhbərlik edirlər. Bu şəxslər daha əvvəl - 2004-2010-cu illərdə Londonda fəaliyyət göstərən "Zqan UK Ltd" şirkətinə rəhbərlik ediblər. Məlum olduğu kimi, Azərbaycanda fəaliyyət göstərən ZQAN holdinq Anar Məmmədova məxsus olub. ZQAN adı da sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərfləri əsasında yaradılıb.

Xatırladaq ki, Bakıda fəaliyyət göstərən KFC restoranları da vaxtilə Anar Məmmədova məxsus ZQAN holdinqə bağlı olub. ZQAN holdinq 2013-cü ildə adını dəyişərək "Garant" holdinq olub. 2017-ci ildə Ziya Məmmədov nazir vəzifəsindən azad edildikdən sonra KFC restoranları "Gilan" holdinqin tərkibinə daxil edilib.

Sabiq nazir oğlunun Londondakı biznesinin 1,4 milyon manatlıq zərəri bir məqamı aktuallaşdırır. Məsələ orasındadır ki, bir neçə ay öncə Anar Məmmədov Britaniyadakı əmlakı və biznesi ilə bağlı gözlənilmədən gündəmə gəlmişdi. Öncə beynəlxalq mətbuatda yayılan məlumatlar sonradan yerli KİV-də də geniş işıqlandırılmışdı. Məlumatlardan belə aydın olurdu ki, 43 yaşlı Anar Məmmədov Amerika qızartma toyuq zənciri KFC-nin İngiltərədə françayzinqinə milyonlarla dollar xərcləyib. Bildirilirdi ki, KFC şəbəkəsinə yatırımları A.Məmmədovun Britaniyadakı biznes və daşınmaz əmlak portfoliosunun - əmlak çantasının bir hissəsidir. "Transparency International UK" təşkilatının Britaniya torpaq reystrindən əldə etdiyi qeydlərə görə, bu portfolioya Londonun ən bahalı küçələrində toplam dəyəri 30 milyon dolları aşan daşınmaz əmlak da daxildir. O, bu daşınmaz əmlakın çox hissəsini atasının nazir olduğu vaxtda əldə edib.

Məlumatlarda başqa ilginc faktlar da özünə yer alırdı.

Çoxlarını isə həmin faktlarla yanaşı bir sual düşündürürdü: Anar Məmmədovun milyonlarla dollarlıq biznesinin indiyədək bilinməyən tərəfləri və tam dəqiq təfərrüatları niyə qəfildən ortaya çıxdı?

Yuxarıdakı sualla bağlı ən ağlabatan cavab o idi ki, Anarın eynilə biznesmen-deputat Cavanşir Feyziyev kimi Londonda "qanunsuz əldə etdikləri gəlirdən" əmlak əldə etməkdə şübhəli bilinməsi və Böyük Britaniya məhkəməsi tərəfindən cəzalandırılması mümkündür. Axı tamamilə aydındır ki, o, ölkə xaricində, həmçinin İngiltərədə milyonlarla dollarlıq biznesə, əmlaklara məhz atası Ziya Məmmədovun nazir olduğu vaxtlardan etibarən sahib olmağa başlayıb. Belədə beynəlxalq mediada son araşdırmanın təsadüf olmadığını və Londonda "yeni Feyziyev vaqiəsi"nin yaşana biləcəyini təxmin etmək çətin deyildi.

Bundan başqa, həbsdə olan Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin həyat yoldaşının Britaniyadakı əmlakı da bu günlərdə müsadirə olunub. Zamirə Hacıyevanın Britaniya Milli Cinayətkarlıqla Mübarizə Agentliyinin (NCA) 6 il çəkən təhqiqatından sonra həmin müsadirəyə razılıq verdiyi bildirilir. Həmçinin Baş nazirin müavini Yaqub Eyyubovun İngiltərədəki şirkətlərindən birinin bağlanması və digərlərinin də bağlana biləcəyi yönündə dövriyyəyə buraxılan xəbərləri, iddiaları da yada salaq.

Bütün bunların fonunda Anar Məmmədovun Londondakı biznesinin öncə gündəmə gəlməsi, ardınca isə böyük məbləğdə zərərə uğraması barədə faktların açıqlanması proseslərin sabiq nazir oğlu üçün arzuolunmaz istiqamətdə inkişaf etdiyini düşünməyə əsas verir. Belə görünür ki, oğul Məmmədovun İngiltərə paytaxtındakı sərmayəsinin başı üstünü alan "qara buludlar" getdikcə sıxlaşır. Prosesin iki variantda yekunlaşacağını təxmin etmək mümkündür. Birincisi, sabiq nazir oğlu həmin biznesdən ya könüllü əl çəkə, ya da əl çəkmək məcburiyyətində qala bilər. İkincisi, biznesmen-deputat Cavanşir Feyziyevin Londondakı əmlaklarının, pullarının başına gələnlərin Anar Məmmədovun da başına gəlməsi, yəni onun da yerli məhkəmə tərəfindən müsadirə qərarı ilə üzləşməsi tamamilə mümkündür.

Sadalanan variantlardan hansının reallaşacağını isə zaman göstərəcək. Ona görə də gözləyək...

***Sənan Mirzə***

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:22 PM Page 4



# Azərbaycan XİN-dən Litvanın xarici işlər nazirinə cavab



***Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2 oktyabr tarixli iclası zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlər tamamilə əsassız və qəbuledilməzdir.***

"Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan əleyhinə səsləndirdiyi fikirlərə dair şərhində deyib: "Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın dalana dirəndiyini qeyd edən, Avropa Şurası Parlament Assambleyası ilə dialoqa, açıq məsələləri həll etməyə çağıran Litva xarici işlər nazirinə xatırlatmaq istərdik ki, dialoqu dayandıran və bundan imtina edən Azərbaycan deyil, məhz AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər parlament üzvləri olub. Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində baş vermiş məlum addımdan sonra da Azərbaycan tərəfi müxtəlif kanallarla dialoqa açıqlığını, vəziyyətin həllində səmimi şəkildə maraqlı olduğunu nümayiş etdirib. Görünən odur ki, Avropa Şurası Nazirlər Komitəsində sədr olan Litva tərəfi Azərbaycanın AŞPA-da hüquqlarının əlindən alınmasından qətiyyən narahat deyil. AŞPA daxilində Azərbaycana qarşı son illər, xüsusilə də ərazilərimizin Ermənistan işğalından azad edilməsindən sonra qərəzli yanaşmalar, ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salınmağa yönəlmiş cəhddir. AŞPA-da təmsilçilik Azərbaycanın haqqıdır və bu haqqın qeyd-şərt olmadan təmin edilməsi zəruridir".

"Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri barədə məsələyə səs verdiklərinə görə Avropa Şurası Parlament Assambleyası deputatlarının Azərbaycana girişinə qoyulan qadağa ilə bağlı fikirlərə gəldikdə qeyd edək ki, bu qərar Azərbaycan Respublikasının qanunvericiliyi əsasında suveren hüququmuz çərçivəsində atılıb və bu tədbir bir çox ölkələrin, o cümlədən Avropa Şurası üzv dövlətlərinin mövcud təcrübəsinə uyğundur. Azərbaycan nümayəndələrini AŞPA-da görmək istəməyən parlament üzvlərini Azərbaycanda görmək kimi bir niyyətimiz və öhdəliyimiz yoxdur. Nazir Landsberqisin AŞPA-nın tribunasından istifadə edərək Azərbaycanda insan hüquqları ilə bağlı səsləndirdiyi əsassız fikirləri də qətiyyətlə qınayırıq. Azərbaycanda milli qanunvericiliyə və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq bütün əsas hüquq və azadlıqlara tam hörmət edilir. Əsaslı sübutlar əsasında başlanmış və qanunvericiliyin tələblərinə uyğun olaraq aparılan təhqiqatları "ifadə azadlığını məhdudlaşdıran sanksiyalar" kimi qələmə vermək tamamilə yanlışdır. Azərbaycanın Qarabağ bölgəsindən könüllü şəkildə Ermənistana köçmüş ermənilərin hüquqlarının Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində qorunduğuna, onların geri qayıdış hüquqlarına hörmət edilməsinin vacib olduğuna istinad edən Litva naziri nədənsə Ermənistan ərazisindən qovulmuş 300 mindən çox azərbaycanlının hüquqları barədə danışmır. Bu kimi qərəzli mövqedən çıxış etmək əvəzinə, Litva nazirinin öz fəaliyyətinə diqqət yetirməsi, həmçinin Azərbaycanla dialoq və əməkdaşlığın bərpası üçün zəruri addımlar atmağa AŞPA-ya çağırış etməsi daha yaxşı olardı", - deyə o bildirib.



## Bu şəxslərə ödənilən birdəfəlik müavinətin məbləği artırılır

***Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman onlara ödənilən birdəfəlik müavinətin məbləği artırılır.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna təklif olunan dəyişiklik layihəsində əksini tapıb.

Dəyişiklik layihəsi barədə məlumat verən Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, daha effektiv sosial təminat prinsipinin tətbiq edilməsi və digər qanunvericilik aktlarına uyğunlaşdırılması məqsədilə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqların və ya onların əvəzinə verilən pul kompensasiyasının məbləğinin də sözügedən müavinətin tərkibinə daxil edilməklə birdəfəlik müavinətin qanunun hazırkı redaksiyası və hazırda ölkə üzrə orta aylıq nominal əməkhaqqının məbləği (Dövlət Statistika Komitəsi tərəfindən sonuncu dəfə açıqlanmış ölkə üzrə orta aylıq nominal əməkhaqqının məbləği 1003,5 manat olub) nəzərə alınmaqla 6 000 manat müəyyən edilməsi təklif edilib.

Məlumat üçün bildirək ki, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman onlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə birdəfəlik müavinət ödənilir

Qərar layihəsi parlamentin plenar iclasına tövsiyə olunub.

## "Təbiətin mühafizəsi üçün davamlı işlər görülür" - Xidmət rəisi

***4 oktyabr Ümumdünya Heyvanları Müdafiə Günüdür. Bu tarix hər il oktyabr ayının 4-də qeyd olunsa da, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən il boyu mütəmadi olaraq bu istiqamətdə tədbirlər həyata keçirilir.***

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev "Unikal"a bildirib ki, zubr, ceyran, nəcib maral, bezoar keçilərinin reintroduksiya edilərək öz areallarına qaytarılması və populyasiyalarının artırılması istiqamətində həyata keçirilən layihələri, su ekosisteminin bərpası məqsədilə Xəzər dənizi və daxili su hövzələrinə balıq buraxılışlarını, həmçinin brakonyerliyə qarşı görülən mübarizə tədbirlərini bu istiqamətdəki fəaliyyətlərə misal göstərmək olar.

"Respublikamızda heyvanların mühafizəsi üçün Xüsusi Mühafizə Olunan Təbiət Ərazisi (XMOTƏ) şəbəkəsi fəaliyyət göstərir və bu şəbəkənin daha da genişləndirilməsi məqsədilə davamlı işlər görülür.

Samux və Qax rayonları, Alazan (Qanıx) çayı vadisi və Axar-baxar dağ silsiləsinin ərazisində yeni milli parkın yaradılması ilə bağlı işlər davam etdirilir. Naxçıvanda ötən əsrdə yalnız Ordubad yasaqlığı var idisə, hazırda orada ümumi sahəsi 148 min 645 hektar olan 4 Xüsusi Mühafizə Olunan Təbiət Ərazisi fəaliyyət göstərir".

# Britaniya səfiri: Bakıda keçirilən COP-29-da məsələləri düzgün tənzimləsək, maliyyə imkanları toplanacaq

***"Mən maliyyə bazarı üzrə mütəxəssis deyiləm. Karbon ticarəti ilə bağlı isə mənim təcrübəm var".***

Bunu "Karbon emissiyalarının azaldılması və bazar mexanizmləri" mövzusunda dəyirmi masada Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld deyib.

O bildirib ki, ölkəsinin karbon bazarları barədə çoxillik təcrübələri yaranıb: "Böyük Britaniya hökuməti olaraq inanırıq ki, karbon bazarları maliyyəni cəlb edə, ölkələrə dəstək göstərə bilər. Britaniya krallığının da bu bazarların formalaşmasında rolu var. Karbona qiymət qoymaq fundamental məsələdir. Xərc baxımından yaxşı yol tap-



maq və özəl sektoru bura cəlb etmək əsasdır. Bu sahəyə maliyyə ayırmaq qarşımızda duran çağırışdır. Karbon bazarları 2030-cu ilə qədər 17 milyon iş yeri aça bilər. Bu neft-qaz sektorundan daha çox iş yeri deməkdir. Ona görə Britaniya krallığı 30-dan çox ölkəni bu bazarın yaradılmasına təşviq edir. COP-29 çərçivəsində Azərbaycan danışıqları növbəti mərhələyə qaldıra bilər və şərait yarada bilər ki, biz də növbəti addımları ataq. Bakıda keçirilən COP-29-da məsələləri düzgün tənzimləsək, maliyyə imkanları toplanacaq. Karbon bazarları insanlar və bəşəriyyət üçün ən yüksək fayda verə bilər. Bu sahəyə kreditlər də ayrılmalıdır. Azərbaycan 0 xalis emissiya sahəsində öz üzərinə düşən bütün işləri görəcək".

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:22 PM Page 5



# Prezident onları təbrik etdi



***Prezident İlham Əliyev İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli cənab Prezident,İraq Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri birgə səylərimizlə bundan sonra da inkişaf edəcək, həm ikitərəfli qaydada, həm də çoxtərəfli təsisatlarda əməkdaşlığımız daha da genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İraq xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

***

Azərbaycan Prezidenti İlham Əliyev Koreyanın Prezidenti Yun Sok Yola təbrik məktubu göndərib.

"Unikal"ın məlumatına görə, məktubda deyilir: "Hörmətli cənab Prezident, Koreya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan Koreya ilə əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Koreya Respublikasına daim əmin-amanlıq və rifah arzulayıram".

# Belarusda Ağdamla bağlı sənəd imzalandı



***Azərbaycan və Belarus Ağdamın Qızıl Kəngərli kəndində aqroşəhərciyin layihələndirilməsi ilə bağlı sənəd imzalayıb.***

"Unikal" xəbər verir ki, sənədə Minskdə rəsmi səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədov və Belarusun Baş naziri Roman Qolovçenko imza atıblar.

Qeyd edək ki, bu gün hökumət başçılarının məhdud tərkibdə görüşü keçirilib, daha sonra müzakirələr hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan-Belarus dövlətlərarası münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, iki ölkə prezidentlərinin sıx təmasları və birgə səyləri nəticəsində müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın dinamik inkişafı qeyd edilib.

Danışıqların yekununa dair Ağdam rayonunda kənd təsərrüfatı istehsalının inkişafı, səhiyyə sahəsində əməkdaşlıq, Ağdam rayonunun Qızıl Kəngərli kəndində aqroşəhərciyin layihələndirilməsi və yanğınsöndürmə avadanlığının tədarükü ilə bağlı bir sıra sənədlər imzalanıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Silahlı birləşmələrlə bağlı yeni qayda

***Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda müvafiq vasitələrlə təmin edilməsi qaydası və təminat norması müəyyən edilməyəcək, onlar üçün ümumi qayda müəyyən ediləcək.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında müzakirə edilərək parlamentin plenar iclasına tövsiyə edilib.

# Əli Əsədov Lukaşenko ilə görüşüb

***Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Minskə rəsmi səfəri çərçivəsində oktyabrın 3-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildiriblər ki, Əli Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Belarus dövlətinin başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olunub.

Qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# "Həm prezident, həm də parlament seçkiləri bizi qane etdi" - Məzahir Pənahov

***Həm prezident, həm də parlament seçkiləri bizi qane etdi. "Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında sədr Məzahir Pənahov deyib.***

O qeyd edib ki, qurumun təsdiq etdiyi seçkilərlə bağlı maarifləndirmə işləri çox əhatəli idi:

"Bütün beynəlxalq qurumlar təcrübə mübadiləsi aparmağa müsbət yanaşdılar. MSK prosesləri lazımi səviyyədə yerinə yetirə bildi. Komissiya üzvlərinə təşəkkür edərək, növbəti tədbirlərə hazırlaşmağı tövsiyə edirəm".



# Bəzi DSK-ların tərkibində dəyişiklik edildi

***Bəzi Dairə Seçki Komissiyalarının (DSK) tərkibində dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında məsələ müzakirə edilib.



MSK-nın sədr müavini Rövzət Qasımovun təqdimatına əsasən, 24 saylı Nizami birinci, 42 saylı Sumqayıt birinci, 82 saylı İmişli-Saatlı Seçki Dairələrinin həlledici səs hüquqlu bəzi üzvləri vəzifəsindən azad edilib, onların yerinə yeni təyinatlar olub.

MSK katibi Mikayıl Rəhimovun təqdimatına əsasən, 83 saylı Beyləqan Seçki Dairəsinin tərkibində dəyişiklik edilib.

Qeyd olunan qərarlar səsə qoyularaq, qəbul olunub.

# COP-29 çərçivəsində TDT ekologiya nazirlərinin ilk iclasının keçirilməsi planlaşdırılır

***Türk dövlətləri birlikdə dünyanın 12-ci ən böyük iqtisadiyyatı və 3-cü qlobal enerji təminatçısıdır.***

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Ankarada Naxçıvan Sazişinin 15-ci ildönümü münasibəti keçirilən "Türk əməkdaşlığının bu günü və gələcək perspektivləri" adlı paneldə çıxışı zamanı bildirib.

O qeyd edib ki, TDT ölkələrindən malların ümumi ixracı da illər ərzində əhəmiyyətli artım nümayiş etdirib: "Daha dəqiq desək, 2015-ci ildəki 420,4 milyard dollarlıq ixracatdan 2023-cü ildə 619 milyard dollarlıq həcmə çatmışıq. Bu əlamətdar artım regionumuzun iqtisadi canlılığını vurğulayır".

K.Ömüralıyev, həmçinin, enerji və nəqliyyat sahəsində də TDT-yə üzv ölkələrin müstəsna rolunun olduğunu vurğulayıb. Digər tərəfdən isə, biz noyabrın 6-da TDT-nin Bişkekdə keçiriləcək Sammitində "Türk Yaşıl Baxışı: Davamlı Gələcək üçün Birlik" adlı konseptual sənədin qəbulu ediləcəyi də gözlənilir.

"Bu təşəbbüs Paris İqlim Sazişinə uyğundur və türk dövlətlərinin iqlim dəyişikliyi ilə bağlı səylərini birləşdirməyə çalışır. Bu il qardaş Azərbaycanda keçirilməsi planlaşdırılan qlobal iqlim sammiti COP-29-a yaxınlaşdıqca, TDT təkcə ətraf mühitimizi qoruyan deyil, həm də regionumuzun iqlim təsirlərinə davamlılığını artıran strategiyalar hazırlamaq və həyata keçirmək məqsədindədir. Əlavə olaraq, biz COP-29 çərçivəsində TDT-nin ətraf mühit və ekologiyaya cavabdeh nazirlərinin ilk iclasını keçirməyi planlaşdırırıq", - deyə o əlavə edib.




# Zəngilan xəstəxanasına yeni direktor təyin olundu

***Zəngilan Rayon Mərkəzi Xəstəxanasına direktor təyin edilib.***

"Unikal" xəbər verir ki, TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanovun təqdimatı ilə xəstəxananın direktoru vəzifəsi Ceyran Abbasovaya həvalə olunub.

Qeyd edək ki, Ceyran Abbasova 1985-ci ildə Zəngilan rayonunun Üdgün kəndində anadan olub. 2003-2009-cu illərdə Azərbaycan Tibb Universitetində, 2009-2010-cu illərdə Zəngilan Rayon Mərkəzi Xəstəxanasında internatura təhsili alıb.



C.Abbasova 2017-2022-ci illər ərzində Bakı şəhərində yerləşən 11 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında həkim-terapevt, 2022-2024-cü illərdə isə Ağalı Ailə Sağlamlıq Mərkəzində bölmə müdiri vəzifəsində çalışıb.

# Prezident Cəbrayılla Zəngilanda açılış və təməlqoyma mərasimində



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.***

"Unikal" xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Həmçinin burada məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir. Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənddə hazır evlərə baxdılar.

Qeyd edək ki, Horovlu kəndinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verdi. Diqqətə çatdırıldı ki, ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.

Xatırladaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti 2021-ci ildə Sərəncam imzalayıb. Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl şəhərində "Azərsun Holding" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.

"Azərsun Holding" şirkətinin Müşahidə Şurasının sədri Abdolbari Gözəl dövlətimizin başçısına istehsal kompleksi haqqında məlumat verdi. Bildirildi ki, qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Ölkəmizdən valyuta axının qarşısının alınmasına töhfə verəcək alkoqolsuz içkilərin istehsalı kompleksi müasirlik və dayanıqlılıq prinsiplərinə uyğun avadanlıqlarla təmin ediləcək. Müəssisədə alternativ enerji mənbələrindən istifadə olunacaq. Tam istehsal gücü ilə fəaliyyətə başladıqdan sonra kompleksdə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Cəbrayıl şəhərinə qayıdacaq 300-ə yaxın sakinin işlə təmin edilməsi nəzərdə tutulur. Alkoqolsuz içkilərin istehsalı kompleksinin istismara verilməsi üçün ilkin mərhələdə 35 milyon manat həcmində investisiyanın qoyuluşu nəzərdə tutulur.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub. "Hicaz" MMC-nin təsisçisi Səfər Sadıqov dövlətimizin başçısına müəssisə haqqında məlumat verdi. Bildirildi ki, müəssisə 3 sahədən - damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq. Birinci mərhələdə 30 hektar ərazidə hər biri 1600 kvadratmetr olmaqla 24 damazlıq yumurta istehsalı sahəsi tikiləcək. Burada illik 24 milyon ədəd damazlıq yumurta istehsal ediləcək. Bununla yanaşı, 2 hektar ərazidə saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin 2 hektar ərazidə yerləşən soyuducu anbar və illik 24 milyon ədəd yumurta tutumuna malik inkubasiya fabriki fəaliyyət göstərəcək. Bütün istehsal zamanı müasir avadanlıqlardan istifadə olunacaq. Müəssisədə istehsal olunan məhsulun keyfiyyətini daim nəzarətdə saxlanılması məqsədilə ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya da fəaliyyət göstərəcək. Layihə üzrə 150 daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev fabrikin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan rayonunda "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, "Sarıqışlaq" SES Oxçu çayının üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - "Cahangirbəyli", "Şayıflı" və "Zəngilan" Su Elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib. "Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq tikilən "Sarıqışlaq" SES-də eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib. Flora və faunanın qorunması üçün xüsusi qurğular quraşdırılmaqla yaradılan baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılmaqla derivasiya boruları çəkilib və borudan çıxan suyun itkisiz şəkildə çaya təkrar buraxılması təmin edilib. "Sarıqışlaq" SES-də tikilən maşın zalında çayda su azalarkən özünü avtomatik dayandıra bilən 2 ekoturbin quraşdırılıb ki, bu turbinlər Oxçu çayının ekoloji axımından iki dəfə artıq suyun çayda saxlanılmasını təmin edir. "Sarıqışlaq"da il ərzində 33 milyon kilovat-saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur. Prezident İlham Əliyev "Sarıqışlaq" Su Elektrik Stansiyasını işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kV olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir. Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Zəngilan" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib. Diqqətə çatdırıldı ki, Mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub. Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verdi. Qeyd edək ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksdəki otel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Otel binasında 111 nömrə, konfrans, iclas və ziyafət zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. İstirahət kompleksinin ərazisində, həmçinin 10 kottec də qonaqların istifadəsinə veriləcək. Oteldə 70 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub. Kompleksin ərazisində üzüm və digər meyvə bağları salınacaq. Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi otel kompleksi müasir standartlar səviyyəsində inşa olunur. Rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub. Dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verildi. Qeyd edək ki, Zəngilan şəhərində quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də bu yaşayış kompleksidir. Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Bildirildi ki, 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub. Kompleksdəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən istifadə edilib. Yaşayış məhəlləsi şəhərin mərkəzi hissəsində, məktəb, uşaq bağçası və şəhər parkının yaxınlığında, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməlini qoyub. Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Qeyd olundu ki, yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir. Kompleksin ərazisi məktəb və uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir. Yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə bu yaşayış kompleksində 334 mənzilin inşası nəzərdə tutulub. Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.

34_27 IYUl-QARA.qxd 10/3/2024 11:22 PM Page 7



## Buraxılış imtahanlarında dəyişiklik: yeni imtahan modeli hazırlanır



***2025-ci ildə ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanında xarici dil (ingilis, alman, fransız, rus, ərəb və fars) fənlərindən yeni imtahan modeli tətbiq ediləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi (DİM) məlumat yayıb.

Bildirilib ki, yeni imtahan modeli aprobasiyadan keçirilib, modelə dair tapşırıq nümunələri Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-2024-cü illərdə nəşr olunmuş ümumtəhsil müəssisələrinin 8 və 9-cu sinif dərsliklərinə uyğun hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitablarında (ingilis dili fənnindən) verilib.

Yeni imtahan modelinə dair ingilis dili fənnindən tapşırıq nümunələri, dinləmə mətni və şəkil üzrə tapşırığın (26 saylı) qiymətləndirmə meyarları ilə (Azərbaycan və rus dillərində) aşağıdakı keçidlərdən istifadə etməklə tanış ola bilərsiniz.

Tapşırıq nümunələri (ingilis dili)
Dinləmə mətni
Qiymətləndirmə meyarları (Azərbaycan dilində)
Qiymətləndirmə meyarları (Rus dilində)

Nəzərinizə çatdırırıq ki, proqram, imtahanda mənimsənilmə səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan seçilmiş altstandartlar, imtahan modelinə uyğun tapşırıq nümunələri və qiymətləndirmə meyarları "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc olunacaq.

## Hesablama Palatası siyasi partiyaları da yoxlaya biləcək



***Kənar dövlət maliyyə nəzarəti obyektlərinin siyahısı genişləndirilir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Hesablama Palatası haqqında" qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, siyasi partiyalar kənar dövlət maliyyə nəzarətinin obyektləri sırasına daxil edilir.

Qeyd edək ki, kənar dövlət maliyyə nəzarəti dövlət vəsaitinin və digər dövlət əmlakının istifadə edilməsinə ali audit orqanı tərəfindən həyata keçirilən müstəqil dövlət nəzarətidir. Kənar dövlət maliyyə nəzarətinin obyektləri dedikdə dövlət orqanları, büdcədənkənar dövlət fondları, bələdiyyələr, publik hüquqi şəxslər, dövlətin və (və ya) bələdiyyələrin səhmi (payı) olan hüquqi şəxslər nəzərdə tutulur.

## "...Qadağan olunması doğru qərardır" - Ekspert

***"İçərişəhərə sakinlərdən başqa digər şəxslərin avtomobillə girişinin qadağan olunması doğru qərardır, çoxdan atılmalı addımdır, dəstəkləyirəm".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Natiq Cəfərli deyib. O bildirib ki, tarixi abidələrə əlavə yük düşməsin deyə İçərişəhərə kənar avtomobillərin girişinə qoyulan qadağa doğru qərardır:

"Amma burada bir məsələni öncədən həll etmək lazımdır. İndidən İçərişəhərdə fəaliyyət göstərən kiçik-orta sahibkarlıq obyektlərinə, mağaza, kafe və otellərə ziyan dəyməsin deyə onların təhcizatını həyata keçirən avtomobillərə giriş icazəsi verilməlidir. Amma təchizatçı şirkətlər də İçərişəhərin özəlliyini nəzərə alıb o bölgədə çalışmaq üçün daha kiçikhəcmli yük maşınlarından istifadə etməlidirlər. İçərişəhərin turizm obyektlərinin təchizatı probleme çevrilsə, həm ziyana düşəcəklər, həm də çoxsaylı turistləri qonaqlamaq işi axsayacaq".

# "Bu gün tərbiyə ilə bağlı həm ailələrdə, həm də məktəblərdə boşluqlar var"

## Ceyhun Məmmədov: "Reallıq ondan ibarətdir ki, təhsilə çox önəm veririk, amma tərbiyəyə diqqət bir o qədər deyil"



***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, son günlər məktəblilər arasında bıçaqlanma hallarının artmasının səbəblərindən, belə halların qarşısının alınması üçün müəllim və valideynlərin atmalı olduqları addımlardan, sosial şəbəkələrin belə hadisələrin çoxalmasına necə təsir etdiyindən və məktəblərdə psixoloqların işinin zəif olmasından danışıb.***

***-Ceyhun müəllim, son günlər məktəblilərin bir-birini bıçaqlması halları artıb. Belə xoşagəlməz hadisələrin son illərdə çoxaldığı müşahidə olunur. Məktəblilərin bıçağa əl atmasının səbəbi nədir?***

-Təəssüflə qeyd etmək lazımdır ki, son günlər belə hadisələrin sayı sürətlə artır. Düşünürəm ki, bu məsələnin əsas səbəbi məktəblərdə və ailələrdə tərbiyə işinin yaxşı qurulmamasıdır. Bu gün tərbiyə ilə bağlı həm ailələrdə, həm də məktəblərdə boşluqlar var. Bu boşluqlar mütləq aradan qaldırılmalıdır. Yəni, valideynlərin bir qisminin özünün tərbiyəsi yerində deyil. Onların tərbiyəsi yerində deyilsə, övladına da normal tərbiyə verə bilməz. O cümlədən, məktəblərin bir qismində təhsilə önəm verilir, tərbiyəyə isə önəm verilmir. Bu da ciddi məsələdir. Ona görə də sistemli tərbiyə işi qurulmalıdır.

***-Məktəblilərin tərbiyəsində müəllim və valideynlər hansı addımlar atmalıdır?***

-Həm məktəblərimiz, həm də valideynlərimiz övladlarının təhsili qədər tərbiyəsinə də fikir verməlidirlər. Tərbiyə təhsil qədər önəmlidir. Reallıq ondan ibarətdir ki, təhsilə çox önəm veririk, amma tərbiyəyə diqqət bir o qədər deyil. Bu da özünü açıq-aydın göstərir və bunun ümumi sistemə çox mənfi təsiri var. Eyni zamanda, ciddi problem yaradan məsələyə çevrilir. Burada da valideynlər övladlarının təhsilinə, tərbiyəsinə, onların formalaşmasına çox böyük diqqətlə və həssaslıqla yanaşmalıdırlar. Belə olduğu təqdirdə nəyəsə nail ola bilərik. Azərbaycanda valideynlərin öz övladlarının təhsilinə önəm verməsini çox təqdirəlayiq və sevindiricidir. Amma tərbiyə məsələsinə o qədər həssas yanaşılmaması bu problemi yaradır. Hesab edirəm ki, bu məsələnin üzərinə ciddi düşməsək gələcəkdə bizi daha çətin və ağır günlər gözləyəcək. Ona görə də bu məsələnin üzərində ciddi düşünülməlidir. Tərbiyə işinə xüsusi önəm verməli, diqqət və həssaslıq göstərməliyik. Bunu həyata keçirməsək, gələcəkdə işimiz çətin olacaq.

***-Məktəblərlə həm də təhsil ocaqlarındakı psixoloqlar məşğul olmalıdır. Şagird sayı çox olan məktəblər var ki, bir psixoloq işləyir. Bunun üçün hansı işlər görülməlidir?***

-Məktəblərdə psixoloqların sayı azdır. Bu məsələnin dəfələrlə qaldırılmasına baxmayaraq, elə məktəblər var ki, hələ də orada psixoloq sayı yetərli deyil. Bu da çox önəmli məsələdir. Bunun üçün psixoloq ştatının sayı artırılmalıdır. Digər tərəfdən isə psixoloq işi bir institut kimi formalaşmalıdır. Təəssüflə qeyd edərdim ki, bizim məktəblərdə bu sahə institut kimi formalaşmayıb. Hətta bəzi məktəblərdə buna dırnaqarası yanaşırlar.

***-Məktəblilər arasında baş verən xoşagəlməz hadisələrin artmasında sosial şəbəkələrin rolunun da olduğu deyilir. Siz necə düşünürsüz, sosial şəbəkələr belə mənfi halların artmasına səbəb ola bilər?***

-Bu prosesdə sosial şəbəkələrin böyük rolunun olduğunu düşünürəm. Bunu sırf sosial şəbəkələrlə əlaqələndirməyin tərəfdarı deyiləm. Hər şeyi bu gün sosial medianın üzərinə yıxmaq, onu günahlandırmaq və onunla əlaqələndirmək düzgün olmaz. Bu cür yanaşma bizə heç nə gətirmir. Ona görə də tərbiyə işi ilə bağlı konsepsiya işləməli, strategiya hazırlamalı və onun əsasında iş aparmalıyıq. Məktəblərdə tərbiyəvi söhbətlərə, dərslərə və təbliğata daha geniş yer ayırmalıyıq.

***Anar Kəlbiyev***

# Kamran Əliyev onu təltif etdi

***Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Taryel Ələkbərovu qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokuror Kamran Əliyev oktyabrın 3-də qəbul edib.***



"Unikal" xəbər verir ki, görüşdə Baş prokuror tərəfindən prokurorluqda uzunmüddətli qüsursuz və səmərəli fəaliyyətinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətinə görə Taryel Ələkbərova "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı və hədiyyə təqdim edilib.

Görüş zamanı Taryel Ələkbərovun prokurorluq orqanlarında keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salınaraq, onun qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı əldə etdiyi nailiyyətlər, eləcə də uzun illər cinayətkarlığa qarşı mübarizə sahəsində müxtəlif kateqoriyadan olan cinayətlərin istintaqı və bu sahədə gənc mütəxəssislərin formalaşmasındakı səmərəli fəaliyyəti qeyd edilib.

Tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və xatirə şəkli çəkilib.

# Məktəblilərin kriminallaşma təhlükəsi böyüyür: Təhsildəki idarəçilik yetərsizliyi, yoxsa xaos...

## Məktəblərdə ard-arda bıçaqlanma hadisələri: cəmiyyət narahatdır, Elm və Təhsil Nazirliyi isə susur

***Bakıda məktəbdə bıçaqlanma hadisəsi baş verib. Hadisə Sabunçu rayonu, 71 saylı orta məktəbdə qeydə alınıb. Belə ki, məktəbin 10-cu sinif şagirdi 2008-ci il təvəllüdlü A.S (şərtidir) D. N-ı (şərtdir) bud nahiyəsindən bıçaqlayıb.***

Yaralı xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 126.3-cü( sağlamlığa ağır zərər vurma, zərərçəkmişin ölümü ilə nəticələnəndə) maddəsi ilə cinayət işi başlanılıb.

Yerli KİV-in məlumatına görə, hadisə ötən gün 15:30 radələrində dərsdənkənar vaxtda qeydə alınıb. Qətlə yetirilən şəxs 71 nömrəli məktəbin XI sinif şagirdidir. Hadisəni törədən şəxs isə məktəbli deyil, ötən il IX sinifdən sonra təhsilini davam etdirməyib.

İlkin araşdırmalar zamanı məlum olub ki, onlar arasında sosial şəbəkədə mübahisə yaranıb. Daha sonra yeniyetmələr yer təyin edərək görüşüblər. Bu zaman Y. Mirzəyev həmyaşıdının bud nahiyəsinə bıçaqla zərbə endirib. Xəsarət ölümcül olmasa da, bıçaq zərbəsi digərinin vena damarını kəsib və o, çoxlu qan itirib. 16 yaşlı oğlan xəstəxanaya çatdırılsa da, vəfat edib.

"Unikal"ın araşdırması zamanı məlum olub ki, yeni tədris ili başlayandan bəri bu, orta məktəblərdə dördüncü bıçaqlanma hadisəsidir. Belə ki, ilk dərs günü - sentyabrın 16-da Goranboy rayonunda məktəbdə bıçaqlanma hadisəsi baş vermişdi. Hadisə Səfikürd kənd tam orta məktəbində qeydə alınıb. Məktəbdə baş verən mübahisə bıçaqlanma ilə nəticələnib. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə Regional qrupundan bildirilmişdi ki, Goranboy Rayon Polis Şöbəsinə 2007-ci il təvəllüdlü A.Həsənəliyevin ayaq nahiyəsinin kəsici-deşici alətlə daxilə keçməyən xəsarət alması barədə məlumat daxil olub. Araşdırmalar zamanı aydınlaşmışdı ki, hadisəni 2007-ci il təvəllüdlü R.Musayev törədib.

Bunun ardınca isə Şəmkir və Xaçmaz rayonlarında 10-cu sinif şagirdlərinin arasında yaranan mübahisələr bıçaqlanma ilə nəticələnmişdi. Həmin hadisələr zamanı bir nəfər ölüb.

Ard-arda baş verən bu hadisələr cəmiyyətdə haqlı olaraq narahatlıq doğurur. Məktəblərin və məktəblilərin kriminal xəbər mövzusuna çevrilməsi şübhəsiz ki, qəbuledilməzdir və aidiyyatı qurumların, xüsusilə də Elm və Təhsil Nazirliyinin məsuliyyətini gündəmə gətirir. Elə sabiq deputat, təhsil eksperti Etibar Əliyev də mediaya açıqlamasında probleme həmin kontekstdən yanaşıb.

"Məktəblərdə bu cür halların baş verməsi bizi düşündürməlidir" deyən keçmiş millət vəkilinin fikrincə, orta təhsil müəssisələrində, məktəblərdə kriminal hadisələrin artmasının çox dərin səbəbləri var: "Son illərdə Azərbaycan məktəbi demək olar ki, deqradasiyaya uğrayıb. Məktəblərdə dərs keçirilmir, 9,10,11-ci sinif şagirdləri məktəbə gəlmirlər. Məktəblərimizdəki tərbiyə komponenti artıq yoxa çıxıb. Müəllimlər bu işlə məşğul olmurlar. Ona görə ki, uşaqlar məktəbdə olmurlar. Mən vaxtilə Milli Məclisdə bu məsələləri dəfələrlə qaldırmışam, ancaq təəssüf ki, heç bir tədbir görülmür. Bu, belə davam edə bilməz".

Keçmiş deputat təəssüflə vurğulayıb ki, Elm və Təhsil Nazirliyinin rəhbərliyi məktəblərə həddindən artıq ögey münasibət bəsləyir. "Onlar yalnız qrant layihələri düşünürlər. Buna görə də məktəblilərin belə hadisələr törətməsi adi hala çevrilib. Məktəbi bilməyən adamlar məktəbə rəhbərlik edir. Regional təhsil idarələrinə rəhbərlik edən şəxslərin demək olar ki, əksəriyyəti təhsilə bağlı adamlar deyillər. Onlar təsadüfən - şəxsi münasibətlərə və ya digər amillərə görə həmin vəzifəyə təyin olunublar", - o əlavə edib.

Sabiq deputat bildirib ki, artıq bu cür hadisələrin qarşısının alınmasının vaxtı çatıb: "Düşünürəm ki, bu istiqamətdə geniş işlər görülməlidir. Maarifçilik işləri aparılmalıdır və bu hadisələr sonlandırılmalıdır. Məktəbi itirən cəmiyyətin gələcəyi görsənmir. Fikir verməsinizsə, elm və təhsil naziri heç vaxt məktəblərdəki davamiyyətdən danışmayıb. Səbəb ondan ibarətdir ki, uşaqlar məktəbdən yayınıb, fərdi hazırlığa yönəlsinlər ki, valideyn də böyük vəsaitlər xərcləsin. Yəni məqsəd maddiyyatın artmasıdır".



Təhsil eksperti Azərbaycanın böyük zəfər qazandığını xatırladıb və əlavə edib ki, cəmiyyət bu zəfərin bəhrəsini görməlidir: "İstedadlı, düşünə bilən milli kadrların yetişməsi üçün əlimizdən gələni əsirgəməməliyik. Elə bir gənc nəsil yetişdirməliyik ki, onlar insan kapitalına töhfə versin, ölkənin gələcəyini düşünsünlər. Bütün bu rüsvayçı hallar bizi düşündürür. Böyük təhsil fədaisi, maarif naziri olmuş, Azərbaycanda məktəbləşmənin təşəkkül tapmasında böyük rolu olan akademik Mehdi Mehdizadə deyirdi ki, "Nazir öz kabinetində otura-otura Kəlbəcərin, Laçının, Tovuzun, Xaçmazın və digər rayonların ən ucqar kəndində olan təhsili, məktəbi hiss etməlidir". İndiki nazir nazirlik binasından heç 100 metr məsafədə olan məktəblə də maraqlanmır, orda nə baş verdiyini başa düşmür. Bilir, amma ona belə reaksiya vermir..."

Qeyd edək ki, Emin Əmrullayevin rəhbərlik etdiyi Elm və Təhsil Nazirliyi nə məktəblərdə ard-arda baş verən kriminal hadisələrə, nə də sabiq deputatın sözügedən mövzudakı ittihamlarına hələlik münasibət bildirməyib. Nazirliyin sözügedən məsələdə səssizliyi təəccüb doğurur və ictimaiyyətdə çox ciddi bir problemə qarşı etinasızlıq hissi yaradır.

***Sənan Mirzə***

## Litva Azərbaycana "öyüd-nəsihət" verə bilən axırıncı ölkələrdəndir - İcmadan etiraz

***Qərbi Azərbaycan İcmasının (QAİ) bəyanat yayıb. "Unikal" bəyanatı təqdim edir: "Litvanın xarici işlər naziri Qabrieulius Landsberqis Avropa Şurasının Parlament Assambleyasında bir sıra anti-Azərbaycan fikirlər səsləndirmişdir.***

Litvanın xüsusən Vətən müharibəsindən sonra sistemli xarakter almış anti-Azərbaycan fəaliyyəti ikrah doğurur. "Lazım bildiyim anda Azərbaycanda sui-istifadə halları ilə bağlı açıqlamalar verəcəm" kimi şit və təkəbbürlü bəyanatlarla Litva naziri özünü və ölkəsini gülünc vəziyyətə salır. Təəssüf ki, bu gün Qərbdə Azərbaycanofobiya mərəzinə yoluxmuş, danışdığı sözün mahiyyətini dərk etməyən, iddiası ilə imkanları tərs mütənasib olan, dövlətçilik təfəkküründən uzaq çoxlu sayda qeyri-ciddi, dilетant siyasətçi var.

Öz ərazisində milli azlıqların hüquqlarını kütləvi və sistemli şəkildə pozan, vətəndaşsızlıq hallarına səbəb olan Litva Azərbaycana insan hüquqları mövzusunda nəyisə öyrətmək haqqına sahib deyil. Litva qoy gedib müxtəlif xalqların harmoniya içində yaşamasını Azərbaycandan öyrənsin. Litva Fransa, Niderland, Kanada ilə birlikdə Azərbaycana "öyüd-nəsihət verə bilən" axırıncı ölkələrdəndir.

Reç Pospolitanın xiffətini çəkən litvalı nazir müstəqilliyini birinci olaraq tanıdıqları Ermənistan rəsmilərinin ən azı sözdə ifadə etdikləri "mifik Ermənistan"dan "real Ermənistan"a keçid niyyəti kimi "real Litva"ya keçməlidir.

Q.Landsberqisin qayıdış hüququnu yalnız etnik ermənilərə aid etməsi, Ermənistanın etnik təmizləməsinə məruz qalmış bir milyondan artıq azərbaycanlıya, o cümlədən qərbi azərbaycanlılara qarşı ayrı-seçkiliyin, qərəzin, onun səlibçi təfəkkürünün göstəricisidir.

Avropa Şurası Parlament Assambleyasının bir ovuc rasist və korrupsioner üzvünün Azərbaycana girişinə icazə verilməməsi məsələsinə gəldikdə, vurğulamaq lazımdır ki, suveren bir dövlət kimi onlara giriş qadağası qoymaq tamamilə Azərbaycanın haqqıdır. Litvalı nazirin bununla bağlı da açıqlamaları lüzumsuzdur. Həmin addım Azərbaycana və Azərbaycan xalqına qarşı etnik və dini ayrı-seçkiliyin ifşa edilməsinə və insan hüquqlarının təşviqinə xidmət edir".

## Penitensiar Xidmət və DİN birgə əməliyyat keçirdi

***Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin əməliyyat aparatı Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə əməliyyat-axtarış tədbiri nəticəsində odlu silah tapılıb.***

"Unikal" Penitensiar Xidmətə istinadən xəbər verir ki, keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində Nəsimi rayonu, Hüseyn Seyidzadə 2 ünvanının qarşısındakı dəmir qarajın önündə gizlədilmiş Ağayev Qurban Fərhad oğluna məxsus 1 ədəd "AKS-74" markalı avtomat silah, 1 ədəd daraq və 3 ədəd güllə aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:22 PM Page 9



# Azərbaycanda bir sıra məhkəmələrə hakimlər təyin edilir



***Azərbaycanda bir sıra məhkəmələrə hakimlər təyin edilir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb.

İclasda Ali Məhkəməyə, Naxçıvan Ali Məhkəməsinə, Bakı, Gəncə, Sumqayıt, Şəki, Şirvan apellyasiya məhkəmələrinə hakimlərin təyin edilməsi müzakirəyə çıxarılıb.

Belə ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimləri Faiq Qəniyev və Əli Məmmədov, Bakı Kommersiya Məhkəməsinin hakimi Leyla Əliyeva, Sumqayıt İnzibati Məhkəməsinin hakimi Ceyhun Məmmmədov, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi Nigar Nəbizadə, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi Təranə Məmmədova, Astara Rayon Məhkəməsinin hakimi Zamin İbrahimov Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin ediləcəklər.

Şəki Apellyasiya Məhkəməsinin hakimi Günay Cavadova həmin məhkəmənin hakimi vəzifəsindən azad edilərək Gəncə Apellyasiya Məhkəməsinin hakimi təyin olunacaq. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi Müşfiq Məmmədov, Tərtər Hərbi Məhkəməsinin hakimi Sevindik Əzizov, Şəki Kommersiya Məhkəməsinin hakimi Rüfət Məcidov vəzifələrinin dəyişdirilməsiylə əlaqədar Gəncə Apellyasiya Məhkəməsinin hakimləri təyin ediləcəklər.

Sumqayıt İnzibati Məhkəməsinin hakimi Vəfa Əzizova, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimləri Toğrul Axundov və Vahid Hacıyev Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri təyin olunacaqlar. Azər İsmayılov vəzifəsinin dəyişdirilməsiylə əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad ediləcək.

Sumqayıt Kommersiya Məhkəməsinin hakimi Zülfüqar Sadiqov, Balakən Rayon Məhkəməsinin hakimi Zamin Tahirov Şəki Apellyasiya Məhkəməsinin hakimi təyin olunacaqlar.

Şəki Apellyasiya Məhkəməsinin hakimi Mahir Əsədli Şirvan Apellyasiya Məhkəməsinin hakimi təyin ediləcək. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi Aytən Novruzova vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin hakimi təyin olunacaq. Samir Mayılov da vəzifəsinin dəyişdirilməsiylə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin hakimi təyin ediləcək.

Eyni zamanda, İlqar Cəfərov, Sərvər Vəliyev, Raqib Qurbanov, Vüsalə Baxışova və Rəşad Həsənov Ali Məhkəmənin hakimləri təyin ediləcəklər.

# Yeni rüsumlar müəyyən edilir



***Azərbaycanda yeni rüsumlar müəyyən edilir.***

"Unikal"ın məlumatına görə, bu barədə məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət rüsumu haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Layihəyə əsasən, arbitraja münasibətdə yardım funksiyalarının yerinə yetirilməsi ilə bağlı ərizənin verilməsinə görə 100 manat, müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizənin verilməsinə görə 50 manat, Arbitraj məhkəmələrinin qərarlarının ləğv edilməsi ilə bağlı ərizənin verilməsinə görə 100 manat, yerli arbitraj məhkəmələrinin qərarlarının məcburi icrasının təmin edilməsi ilə bağlı ərizənin verilməsinə görə 50 manat rüsum müəyyən edilir.

# Nazirlik COP29-la əlaqədar tədbirlər planı hazırladı

***Elm və Təhsil Nazirliyi COP29-la əlaqədar tədbirlər planı hazırlayıb.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil nazirinin müavini Firudin Qurbanov oktyabrın 3-də Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində təşkil olunan "İqlim keçidlərində ali təhsilin rolu" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, orta və ali məktəblərdə ekoloji şüur formalaşdırılmalıdır: "İnsan kapitalının ali təhsildə vacib rolunu nəzərə alsaq, iqlim maarifləndirməsində ali təhsilin trayektoriyasını genişləndirmək vacibdir".

F.Qurbanov bildirib ki, bu həftə təhsil müəssisələrində "Yaşıl həftə" elan olunub: "Seminarlarla şagirdlərdə və tələbələrdə mədəniyyətin formalaşdırılmasına çalışırıq".

# Məmurlardan milyonlarla manatlıq tender qazanan məşhur şirkət ağır duruma düşdü

## İlin ilk 6 ayında 1,7 milyon manatlıq zərər edən və işçilərini ixtisara salmağa başlayan "Diadem"in gəlirləri niyə kəskin azalıb?



***Tikinti şirkətlərinə podrat xidmətləri göstərən və tikinti materiallarının satışı ilə məşğul olan "Diadem" ASC 2024-cü ilin 1-ci yarısını (yanvar-iyun) 1 milyon 713 min manat xalis zərər ilə başa vurub. Halbuki, şirkət ötən ilin birinci yarısını 2 milyon 39 min manat, tam 2023-cü ili isə 1 milyon 856 min manat xalis mənfəət ilə bağlamışdı.***

"Diadem" ASC-nin əsas əməliyyat gəlirləri 2023-cü ilin ilk 6 ayında 6 milyon 322 min manat ikən, 2024-cü ilin ilk 6 ayında 2 milyon 168 min manat təşkil edib (4 milyon 154 min manat və ya təxminən 3 dəfə azalıb). Şirkət 2022-ci ildə 77 milyon 793 min manat, 2023-cü ildə 58 milyon 436 min manat gəlir əldə etmişdi. Beləliklə, ildən- ilə "Diadem"in gəliri azalıb.

2024-cü ilin ilk 6 ayında "Diadem" ASC-nin 2 milyon 176 min manat cəmi gəlirlərinə qarşı, cəmi xərcləri 3 milyon 920 min manat olub.

Hazırda "Diadem" ASC-nin səhmdarları Nəbiyev Elbrus Ənvər oğlu (75%) və Dostumalıyeva Kamalə Qocakişi qızıdır (25%).

Adıçəkilən şirkət müxtəlif təyinatlı tikililərin inşasını həyata keçirir, eləcə də tikinti materiallarının satışı ilə məşğuldur. Şirkət əsasən qeyri-yaşayış binalarının zavod, sex, xəstəxana, məktəb, ofislər, restoran, mağaza, kommersiya mərkəzləri, idman zalları, dayanacaq, anbar və sair tikintisi ilə məşğuldur.

Qeyd edək ki, "Diadem" ASC tez-tez tenderlərdə qalib gələrək, milyonlarla manat sifarişlər alıb.

Yerli KİV-in məlumatlarından belə aydın olur ki, sözügedən şirkət 2019-cu ildən 2022-ci ilə kimi iştirak etdiyi dövlət tenderlərində 134 milyon 490 min 497 manatlıq sifariş qazanıb. Şirkət bu sifarişləri cəmi 9 tenderlə əldə edib - bir tenderlə qazanılan sifarişin orta məbləği 14 milyon 943 min manatdır.

Azərbaycan təcrübəsi bu qədər böyük məbləğlərlə müşayiət olunan tenderlər qazanmış şirkətlərin bir qayda olaraq hansısa məmura bu və ya digər formada bağlı olduğunu göstərir.

Araşdırmalar "Diadem" şirkətinin 2023-cü ildən etibarən "tender fəallığının" gözlənilmədən aşağı düşdüyünü göstərir. Adıçəkilən ASC-nin zərər etməyə başlamasında, gəlirlərinin kəskin şəkildə azalmasında məhz bu amilin həlledici rol oynadığını düşünmək mümkündür.

Onu da deyək ki, haqqında danışdığımız şirkətin işçilərinin sayı da son vaxtlar xeyli azalıb. Belə ki, "Diadem"in işçilərinin sayı 2021-ci ilin sonunda 442 nəfər ikən, 2023-cü ilin sonunda 323 nəfərə düşüb. Bu isə ASC-də çalışanların hardasa dörddə biri deməkdir.

Məlumat üçün vurğulayaq ki, Açıq Səhmdar Cəmiyyəti təşkilati formasına baxmayaraq "Diadem"in cəmi 2 səhmdarı var - Nəbiyev Elbrus Ənvər oğlu səhmlərin 75%-nə, Dostumalıyeva Kəmalə Ocaqkişi qızı isə 25%-nə sahibdir. K.Dostumalıyeva təsisçi olmaqla yanaşı həm də şirkətdə menecer vəzifəsi tutur. Yeri gəlmişkən, şirkətin direktoru Dostumalıyev Fuad Azər oğludur, o da böyük ehtimalla təsisçilərdən birinin yaxın qohumudur.

"Diadem"in iqtisadi göstəricilərinə qayıtsaq, 2021-2023-cü illərdə şirkət sürətlə böyüməkdə davam edib. Onun cəmi aktivləri 79 milyon manatdan 95 milyon manata, 2023-cü ildə isə 102 milyon manata yüksəlib, bunun böyük hissəsi mal material ehtiyatları, tikinti və avadanlıqlar olub.

Bununla yanaşı, şirkətin mənfəəti davamlı şəkildə azalıb. 2021-ci ildə "Diadem"in xalis mənfəəti 9,3 milyon manat olduğu halda, 2022-ci ildə bu rəqəm 7,3 milyon manata, 2023-cü ildə isə 1,4 milyon manata enib. 2024-cü ildə isə son 4 ildə ilk dəfə olaraq şirkət yarım ili zərərlə başa vurub. Belə ki, yazının əvvəlində də vurğuladığımız kimi, 2024-cü ilin ilk yarımilində ASC-nin satışdan gəlirləri 6,3 milyon manat olduğu halda, bu ilin ikinci yarısında satışlar 3 dəfə azalaraq 2,17 milyon manata düşüb. Həmin dövrdə maya dəyəri xərcləri göstərilmədiyi üçün hesabatdan belə məlum olub ki, bu dövrdə şirkət hər hansı iş və xidmət həyat keçirməyib, sadəcə əvvəlki dövrdə görülən işlərin gəlirlərini əldə edib.

Əvvəlki illərdə çox sayda milyonluq tenderlər udan şirkətin bu il hər hansı iş və xidmət həyata keçirməməsinin səbəbi məlum deyil.

***Toğrul Əliyev***

# "Azəristiliktəchizat" Yaşar Həsənovdan sonra da zərərlə işləyir

## Ziyan artır, borc öhdəlikləri yüksəlir - Keçmiş sədrin postundan kənarlaşdırılması belə, vəziyyəti müsbətə doğru dəyişdirməyib

***"Azəristiliktəchizat" ASC 2023-cü ili 9,7 milyon manat zərərlə başa vurub. ASC-nin maliyyə hesabatına əsasən, bu, 2022-ci illə müqayisədə 18,1% çoxdur. Sənədə əsasən, ötən il səhmdar cəmiyyətin yığılmış zərəri 9% artaraq 118,2 milyon manata çatıb.Bu il yanvarın 1-nə "Azəristiliktəchizat"ın aktivləri 154,3 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 1,7% çoxdur. Hesabat dövründə qurumun öhdəlikləri 14,3% artaraq 77,7 milyon manata çatıb.***

Ötən il "Azəristiliktəchizat" ASC-ə dövlət tərəfindən kapital qoyuluşunun həcmi 2022-ci illə müqayisədə 4,7% artırılıb. Belə ki, ASC-yə dövlət tərəfindən kapital qoyuluşu 55609208 manatdan 58218329 manata çatdırılıb.

Qeyd edək ki, Tarif (qiymət) Şurasının 25 sentyabr 2024-cü il tarixində növbəti iclası keçirilib və müvafiq qərarlar qəbul edilib. Nazirlər Kabinetinin 2024-cü il 3 aprel tarixli 197 nömrəli Qərarı ilə qeyri-əhali istehlakçılarının istilik təchizatı xidmətinin tarifləri dövlət tənzimlənməsindən çıxarılıb. Bu xidmətlərin tarifləri "Azəristiliktəchizat" ASC ilə müqavilə əsasında müəyyən ediləcək. Bununla əlaqədar Şuranın 24 noyabr 2011-ci il tarixli 4 nömrəli Qərarı Nazirlər Kabinetinin müvafiq Qərarına uyğunlaşdırılıb.

Bundan öncə "Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı "Sputnik Azərbaycan"a bildirmişdi ki, 2024-cü il sentyabrın 1-dən etibarən qeyri-əhali istehlakçıları üçün istilik xidmətləri ilə bağlı qiymətlər müqavilə ilə müəyyən ediləcək: "İndiyə kimi qeyri-əhali istehlakçıları 1 kubmetr isidilən həcm üçün aylıq 25 qəpik ödəyirdilər. Bundan sonra isə qiymətlər müqavilə ilə müəyyən ediləcək. Yenilik ondan ibarətdir ki, qeyri-əhali qrupu üçün istilik xidmətləri ilə bağlı qiymətlər dövlət tərəfindən tənzimlənən qiymətlərin siyahısından çıxarılıb. Yəni bundan sonra qeyri-əhali qrupu üçün istilik xidmətləri tariflərini Tarif Şurası müəyyən etməyəcək. Bu qərar əhali qrupuna aid deyil".

O, əlavə etmişdi ki, sentyabrın 1-dək qeyri-əhali üçün istilik xidmətləri ilə bağlı xərclər müəyyən ediləcək və ona uyğun da müqavilələr bağlanacaq: "Qeyri-əhali qrupu üçün istilik xidmətləri ilə bağlı qiymətlər dəyişəcək. Ancaq bu qiymətlərin bahalaşıb və ya ucuzlaşacağını indidən demək mümkün deyil".

Xatırladaq ki, Azərbaycanda qeyri-əhali qrupuna aid istehlakçılar üçün istilik xidmətlərinə görə hesablaşmalar müqavilə ilə müəyyən edilmiş tariflərlə həyata keçiriləcək. Nazirlər Kabineti "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edib. Dəyişikliyə görə, qeyri-əhali qrupu üçün istilik xidmətləri ilə bağlı qiymətlər dövlət tərəfindən tənzimlənən qiymətlərin siyahısından çıxarılıb. Sənəddə deyilir ki, ölkədə qiymətləri dövlət tərəfindən tənzimlənən sahələrin liberallaşması istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə Nazirlər Kabineti bu qərarı qəbul edib.

Hazırda əhali qrupu üçün istilik xidməti tarifi 1 kvadratmetr yaşayış sahəsinə görə aylıq 15 qəpikdir və bu tarifdə dəyişiklik yoxdur.

Qeyd edək ki, "Azəristiliktəchizat" dövlət başçısının "İstilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 8 iyun 2005-ci il tarixli sərəncamı əsasında yaradılıb. Səhmdar cəmiyyəti Bakıda və regionlarda yaşayış evlərini və binaları, təhsil, səhiyyə müəssisələrini və digər sosial təyinatlı obyektləri istiliklə təchiz edir. Bu qurumun yarandığı tarixdən 2022-ci ilədək rəhbəri Yaşar Həsənov olub. O, Bakının sabiq meri Hacıbala Abutalıbovun yaxın kadrı sayılırdı. Həsənovun zamanında adıçəkilən ASC mediasının ən çox tənqid etdiyi qurumlardan biri idi. Bu, səbəbsiz deyildi. Hər il dövlət büdcəsindən on milyonlarla manat dotasiya alan "Azəristiliktəchizat"ın Y.Həsənov vəzifəsindən uzaqlaşdırıldığı dövrdə nə az, nə çox, düz 46 milyon manat borcu vardı. Əvəzində yerli KİV Yaşar müəllimin oğlunun 300 min manatlıq avtomobilinin, dəyəri milyonlarla manatlıq villasının varlığından yazırdı.



Həsənov postunu itirdikdən sonra "Azəristiliktəchizat" ASC-nin sədri vəzifəsini müvvəqəti olaraq İlham Mirzəliyev icra etməkdədir. Mirzəliyev bundan əvvəl isə sədr müavini postunu tuturdu.

Təəssüf doğuran məqam isə adı çəkilən qurumun hələ də zərərlə işləməyə davam etməsidir. Üstəlik, 2023-cü ildəki 9,7 milyon manatlıq zərər 2022-ci illə müqayisədə 18,1% çoxdur. Ən əsası isə ötən il səhmdar cəmiyyətinin yığılmış zərəri 9% artaraq 118,2 milyon manata çatıb və bu, Yaşar Həsənovun rəhbərlik etdiyi dövrlə müqayisədə xeyli çoxdur. Həmçinin qurumun borc öhdəlikləri, qısamüddətli və uzunmüddətli öhdəlikləri, ticarət və digər kreditor borcları artıb.

Bir sözlə, keçmiş sədrin vəzifəsindən uzaqlaşdırılması da "Azəristiliktəchizat"ı düşdüyü çətin durumdan xilas etməyib.

***Toğrul Əliyev***

# "Ekoloji fəlakətlər hər il 40 milyon uşağın təhsilini pozur" - Nazir



***Dünyadakı uşaqların təxminən yarısı iqlim dəyişikliyinin təsirləri üçün son dərəcə yüksək risk altında olan ölkələrdə yaşayır.***

"Unikal" xəbər verir ki, bunu COP29-un müəyyən edilmiş Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Bakı İqlim Fəaliyyəti Həftəsinin dördüncü günündə çıxışında deyib.

"UNICEF-in 2023-cü il hesabatında qeyd olunur ki, iqlimlə bağlı fəlakətlər hər il 40 milyona yaxın uşağın təhsilini pozur. Amma gənclər fəaliyyət üçün ən güclü səslərdən biridir. COP28-də BƏƏ Konsensusu uşaqları iqlim prosesinin mərkəzinə qoymaqda mühüm mərhələ oldu. COP29 Sədrliyi gənclərin xüsusi ehtiyaclarına davamlı diqqətin təmin edilməsinə sadiqdir. Bu, uşaqların və gənclərin səsini prosesin mərkəzinə qoymaq deməkdir. Həm də bu, onlar üçün nəticələr verən bir proses mənasını ifadə edir", - deyə nazir bildirib.

# Ruslan İzzətlinin həbs müddəti uzadıldı

***III Respublika Platformasının qurucu üzvü Ruslan İzzətlinin barəsində həbs qətimkan tədbirinin müddətinin uzadılması ilə bağlı təqdimata baxılıb.***

"Unikal" xəbər verir ki, Xətai rayon Məhkəməsində keçirilən prosesdə istintaq orqanının təqdimatı təmin edilib.

Ruslan İzzətli barəsində olan həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

Qeyd edək ki, Ruslan İzzətli Cinayət Məcəlləsinin 206.3.2 (qaçaqmalçılıq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ittiham olunurlar.

# XİN türk dövlətlərini təbrik etdi



***Tarixi Naxçıvan Sazişi ilə əsası qoyulmuş, bir-birinə sıx tellərlə bağlı olan türk dövlətləri və xalqları arasında qardaşlıq, dostluq, həmrəylik əsasında birgə əməkdaşlığa əsaslanan Türk Dövlətləri Təşkilatının yaradılmasından 15 il ötür.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Naxçıvan Sazişinin ildönümü ilə bağlı "X" hesabındakı paylaşımında qeyd olunub.

XİN bu münasibətlə türk dünyasını birləşdirən təşkilatın bütün üzv və müşahidəçilərini təbrik edib: "Ötən 15 il ərzində daha fəal, sistematik xarakter alan TDT-nin bundan sonra da gücləndirilməsi istiqamətində birgə fəaliyyətimizdə uğurlar arzu edirik!".

Qeyd edək ki, 3 oktyabr 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Görüşündə iştirakçı dövlətlər - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən imzalanan və Türk Şurasının yaranmasına gətirib çıxaran Naxçıvan Sazişi imzalanıb. Sənədin imzalanma tarixi - 3 oktyabr Türkdilli Ölkələrin Əməkdaşlıq Günü elan edilib və hər il qeyd olunmaqdadır.

# Talış kəndinə köçürülənlər işlə təmin olunub

***İşğaldan azad olunmuş yurd yerlərimizə Böyük Qayıdış proqramı üzrə görülən işlər çərçivəsində Talış kəndində də sakinlər aktiv məşğulluq tədbirləri ilə əhatə olunurlar.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Unikal"a verilən məlumata görə, Dövlət Məşğulluq Agentliyi tərəfindən ilk mərhələdə həmin sakinlərin məşğulluq imkanları qiymətləndirilir və onların hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir. Talış kəndinə köçürülən sakinlərdən artıq 40 nəfərin məşğulluğu təmin olunub.

Onlar özünüməşğulluq, vakansiyalara uyğun işlə təminat, haqqı ödənilən ictimai işlər proqramları çərçivəsində işlə təmin ediliblər. Talış kəndi 3 oktyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib.

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:23 PM Page 11



## "Sexdə yanğından mühafizə avadanlıqları quraşdırılmamışdı" - Tağı İbrahimovun məhkəməsində zərərçəkənlər dindirildi



***Bakının Binəqədi rayonunda bu il yanvarın 15-də “Bakı Ağac Emalı” Açıq Səhmdar Cəmiyyətinin (ASC) ərazisində yerləşən mebel emalatxanasında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayışda təqsirli bilinən şəxslərin məhkəməsinin növbəti prosesi keçirilib.***

”Unikal”ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elmin Rüstəmovun sədrliyi ilə keçirilən prosesdə bəzi zərəçəkmişlər və hüquqi varislər dindirilib.

Zərərçəkmiş şəxs Elvin Məmmədovun həyat yoldaşı və hüquqi varisi Gülnaz Məmmədova bildirib ki, ona həm maddi, həm də mənəvi ziyan dəyib:

”2015-ci ildə Saatlı rayonundan Bakıya köçmüşük. Yoldaşım Elvin Məmmədov Babək Nəzərovun sexində taxta kəsimi prosesində işləyirdi.

O, partlayışda həyatını itirdikdən sonra biz çox çətin vəziyyətə düşdük. Bizim biri 9, digəri 3 yaşında olmaqla iki azyaşlı övladımız var. Mən bizə maddi kömək olunmasını, kirayədə qaldığımıza görə evlə təmin edilməyimizi istəyirəm”.

G.Məmmədova əlavə edib ki, hadisədən sonra Tağı İbrahimovun qohumları onlara dəstək olublar: ”T. İbrahimovun qohumları ailəmə 5 min manat ödəyiblər. Dedilər ki, bu barədə tapşırığı Tağı verib”.

Digər zərərçəkmiş Fərid Qubadovun həyat yoldaşı Elnarə Qubadova hüquqi varisi qismində çıxış edib: ”Həyat yoldaşım Fərid Qubadov həmin zavodda daş sexini icarəyə götürmüşdü. Öz işçiləri ilə birgə orada işləyirdi. Mənə dediyinə görə onun aylıq 5-6 min manat gəliri olub. İcarəyə götürdüyü obyektin Tağı İbrahimova məxsus olduğunu bilirdim. Amma o, icarə pulunu Anar adlı şəxsə ödəyirdi”.

Anar məhkəmə zalında iştirak etdiyi üçün bu faktı təsdiqləyib. Əlavə edib ki, icarə haqqını o, sexdən alıb zavoda ödəyib.

Daha sonra iş üzrə zərərçəkmiş Fərrux Hüseynov ifadəsində bildirib ki, partlayışda ona külli miqdarda maddi ziyan dəyib: ”Mənim həmin zavodda mebel sexim olub. Oranı Toğrul Rzayevdən icarəyə götürmüşdüm. İcarə haqqını da ona verirdim. 10 ildir ki, zavodda müdirimin yanında işləyirdim. 2 il öncə işlədiyim sexi icarəyə götürdüm. O zaman Toğrul məndən vəsiqəmi aldı və bildirdi ki, müqavilə bağlayacaq. Daha sonra bununla bağlı məlumatım olmadı.

Ümumilikdə mənə 113 min manat maddi ziyan dəyib. Çünki zavoddakı sexlər bir-birinə bitişik binalar olub və partlayış hamısına təsir edib. Eyni tavanın altında yerləşən binalardan söhbət gedir. Sadəcə qapıları fərqliydi. İşimiz mebelə aid bütün tullantıları toplamaqdan ibarət olub. Ziyan isə işlətdiyimiz avadanlıqların məhv olması nəticəsində dəyib. Özümdən başqa 5 işçim olub. İkisinin avtomobili yanıb, biri də yüngül dərəcəli bədən xəsarətləri alıb. Ona dəyən ziyan isə ödənilməyib.

Zərərçəkmiş şəxs sexdə yanğından mühafizə üçün avadanlıqların mövcud olmadığını da bildirib.

Digər zərərçəkmişlərdən Solmaz Abbasovanın oğlu Tural Həsənov deyib ki, keçirdiyi şokun təsirindən hələ də ayıla bilməyib: ”Anam həmin zavodun binasındakı tikiş sexində işləyirdi. İşlədiyi yerin dəqiq harada yerləşdiyini bilmirəm. Hadisəni də işlədiyi yerə gələndə öyrəndim. Həmin günü anama zəng etmişdim. Ona zəng çatmayanda narahat oldum. İş vaxtı bitdikdən sonra anam evə qayıtmadı və mən narahat oldum. Gedə biləcəyi yerlərə zəng etdim. Daha sonra partlayış yerində olanları öyrəndim. Özümə gələ bilmədiyim üçün bütün hüquqi proseslərlə dayımgil məşğul olub.

Daha sonra hadisə yerində həyatını itirmiş Aydın Atakişiyevin oğlu Bəhram Atakişiyev ifadə verərək bildirib ki, tək tələbi onlara dəymiş ziyanın ödənilməsidir.

Əlavə edib ki, A.Atakişiyev Vahid adında şəxsin yanında işləyib. Atası ümumilikdə 10 il zavodda çalışıb.

Növbəti proses 22 oktyabr tarixinə təyin edilib.

Qeyd edək ki, bu il yanvarın 15-də paytaxtın Binəqədi rayonunda “Bakı Ağac Emalı” Açıq Səhmdar Cəmiyyətinin ərazisində yerləşən mebel emalatxanalarında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən yanğının müşayiət olunan partlayış baş verməsi faktı əsasında Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.

İbtidai istintaqla ASC-nin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxslər kimi bu qaydaları ehtiyatsızlıqdan pozaraq 10 nəfərin ölümünə, 23 nəfərin isə xəsarət almasına, habelə ASC-nin ərazisində olan əmlaklara və təbiətə maddi ziyan vurmaqla digər ağır nəticələrə səbəb olmaları, həmçinin Tağı İbrahimovun xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Tağı İbrahimova Cinayət Məcəlləsinin 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma) və 225.3-cü (üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə, Toğrul Rzayevə isə həmin Məcəllənin 225.3-cü maddəsi ilə yekun ittiham elan edilib, onların hər ikisi barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***Seymur Əli***

# Lütvəli Babayevin başı yenidən böyük bəlada

## Vəzifədə ikən adı ətrafında qalmaqallar səngiməyən sabiq icra başçısının indi də oğlu 2 milyon manatlıq mənimsəmədə günahlandırılır - Şok təfərrüatlar!

***İki ayrı rayonda ümumilikdə 14 il icra başçısı işləmiş Lütvəli Babayevin biznesmen oğlunun başına iş gəlib. ”Qafqazinfo”nun əldə etdiyi məlumata görə, Babəli Babazadənin dostu üçüncü şəxslə əlbir olaraq onun əmlaklarını 2 milyon manata sataraq pulunu mənimsəməkdə ittiham olunur.***

Məsələ burasındadır ki, bu hadisə baş verməzdən əvvəl B.Babayevin sahibi olduğu tikinti şirkətinin 1 milyon manat vergi borcu yaranıb. Bununla bağlı ona rəsmi məktub gəlib, verginin ödənilməli olduğu xatırladılıb. Bu məsələyə görə Babəli dostu Aruz Əliyevlə məsləhətləşib, ondan nə edə biləcəyini soruşub.



Aruz Əliyev özü isə həkim-cərrahdır. O, bu cinayətin üstü açılana kimi ”Uniklinika”nın baş həkimi olub.

İddia olunur ki, Aruz külli miqdarda vergi borcu yaranmış Babəliyə ölkədən çıxmasının lazım olduğunu deyib. O, tanışı Ehtiram Kərimovla əlbir olaraq eks-icra başçısının oğlunun Türkiyəyə qaçmasına nail olub.

Elə əsas hadisələr də bundan sonra başlayıb. Belə ki, Babəli Türkiyədə yaşadığı müddətdə Bakıdakı əmlaklarını idarə etmək üçün Aruza etibarnamə verib. O, əmlakları satışa çıxarıb. Dediyinə görə, Aruz onun etibarından sui-istifadə edib. Aruz və Ehtiram Babəlinin Binəqədi rayonunda yerləşən yarımtikilisini və Nərimanov rayonundakı əmlakını ümumilikdə 2 milyon manata satıblar. Bundan sonra həmin pulu əmlakların sahibinə vermədən dələduzluq yolu ilə şəxsi mənafelərinə sərf ediblər.

Zərərçəkmiş şəxsin şikayəti əsasında baş həkim Aruz Əliyev və Ehtiram Kərimov polis əməkdaşları tərəfindən tutulub. Onlara dələduzluq maddəsinin ən ağır bəndi ilə ittiham irəli sürülüb, hər ikisi haqda həbs qərarı verilib.

İstintaq dövründə keçmiş icra başçısı Lütvəli Babayev də dindirilib. O, cinayət işi üzrə şahid qismində tanınıb.

Təqsirləndirilən şəxslər isə ittihamları qəbul etmirlər. Onlar deyirlər ki, zərərçəkmiş əmlaklarını könüllü satdırıb, pulunu da Türkiyədə xərcləyib. İttiham olunan tərəfin iddiasına görə isə Babəli ailəsinin əmlakını satıb xərclədikdən sonra vəziyyətdən çıxmaq məqsədilə dostundan istifadə edib.

Digər məlumata görə, Babəli Türkiyəyə qaçmazdan əvvəl xırda xuliqanlığa görə 15 gün həbsdə qalıb. Buraxıldıqdan dərhal sonra isə ölkədən gedib.

Yaxın vaxtlarda bu iş üzrə məhkəmə istintaqı başlayacaq. Həm zərərçəkmiş, həm təqsirləndirilən şəxslər işin halları barədə ətraflı məlumat verəcəklər. Məhkəmə proseslərini diqqətdə saxlayacağıq.

Qeyd edək ki, iki il əvvəl bu iş üzrə zərərçəkmiş Babəli Babazadənin Azərbaycandakı biznesini Rusiyaya köçürməsi barədə mediada məlumat yayılıb. Mətbuatdakı xəbərlərə görə, o, Moskvada ”Liqa-Stroy” Məhdud Məsuliyyətli Cəmiyyətini (OOO LİQA-STROY) təsis edib.

Xatırladaq ki, Lütvəli Babayev 2005-2007-ci illərdə Mingəçevirin, 2007-2019-cu illərdə isə Zərdabın icra başçısı işləyib.

Qaynarinfo-nun məlumatına görə, 12 noyabr 2019-cu il tarixdə icra başçısı vəzifəsindən azad edilən Lütvəli Babayev elə həmin ildən Rusiyanın Novosibirsk vilayətinə köçüb. Sabiq icra başçısı hazırda ailəsi ilə birlikdə sözügedən şəhərdə yaşayır. İki qızı və bir oğlu olan Lütvəli Babayev orda biznes fəaliyyəti ilə məşğuldur. Onun tikinti və otel biznesi var.

İqtisadiyyat üzrə fəlsəfə doktoru olan Lütvəli Babayevin Rusiyada universitetlərin birində müəllim fəaliyyəti ilə də məşğul olduğu deyilir. Onun yalnız yay aylarında dincəlmək üçün Azərbaycana gəldiyi bildirilir.

Əslində sabiq başçının ”vurulması” gözlənilməz olmuşdu - o, Zərdab rayonunun icra başçısı postundan 2019-cu ildə, 60 yaşının tamam olduğu ərəfədə azad edilmişdi. Bu səbəblə də onun işdən çıxarılmasında yaş amilinin rol oynaması istisna idi. Axı Lütvəli müəllim hələ heç pensiya yaşına da çatmamışdı. Ona görə də həmin vaxt yerli KİV belə ehtimal edirdi ki, Lütvəli müəllim korrupsiya da başda olmaqla bir çox neqativ əməllərinə, qeyri-qənaətbəxş fəaliyyətinə görə vəzifəsindən azad olunub. Bundan başqa, onun Zərdaba rəhbərlik etdiyi dövrdə bu rayon ölkənin iqtisadi baxımdan ən geridə qalmış rayonları arasında göstərilirdi, yerli sakinlərin də dediyi kimi, baxımsızlıq, təsərrüfatsızlıq baş alıb gedirdi. Zərdablıların çətin sosial-iqtisadi vəziyyətdə yaşadığı, işsizlikdən əziyyət çəkdiyi bir vaxtda isə sabiq başçının ailə biznesinin günbəgün çiçəklənməsi maraq doğururdu.

Onu da deyək ki, L.Babayevin maraqlı karyerası var: Mingəçevirdə məktəb direktoru olarkən bu vəzifədən həmin şəhərin icra hakimiyyətində yüksək vəzifəyə (ümumi şöbənin müdiri) gətirilmiş, 1997-ci ilə qədər həmin vəzifədə işləmiş, ardınca nəyə görəsə elə həmin il yenidən müəllimlik peşəsinə qayıdaraq o vaxtlar mövcud olan San-Marino Universiteti adlı qalmaqallı ali məktəbin Mingəçevir filialında müəllim işləməyə başlamışdı. İki il sonra isə Lütvəli müəllim yenidən şəhər İcra Hakimiyyətinə qayıtmış, bu dəfə Şəhər İcra Hakimiyyəti Başçısı Aparatında ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri olmuşdu.

2005-ci ilə qədər həmin vəzifədə işlədikdən sonra isə Mingəçevirin icra başçısı təyin olunan L.Babayev bu vəzifədə iki il işlədikdən sonra, 2007-ci ildə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı postuna təyinat almışdı. Beləliklə, onun nəinki sadə zərdablılarla, hətta rayonun vəzifəli şəxsləri və iş adamları ilə çox sayda qalmaqallarla müşahidə edilən, Zərdaba ümumi rəhbərlik baxımından isə uğursuzluqlarla dolu dövrü start götürmüşdü. Həmin dövr 5 il öncəyədək davam etmiş, sonda isə L.Babayev özünə, yaxınlarına geniş biznes şəbəkəsi qurmuş, zərdablılara isə saysız-hesabsız sosial-iqtisadi problemlər miras buraxmışdı…

Vəzifədə olduğu müddətdə adı ətrafında qalmaqallar səngiməyən, müxtəlif ittihamlar səsləndirilən sabiq icra başçısının öz postunu itirdikdən sonra oğlu ilə bağlı 2 milyon manatlıq mənimsəmə iddiaları Lütvəli müəllimin hələ də öz ”ənənəsinə” sadiq qaldığını, növbəti dəfə qalmaqal ”qəhrəmanına” çevrilməyə bacardığını göstərir.

***Sənan Mirzə***

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:23 PM Page 12



## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda orta nikah yaşı niyə artır?

## Əhməd Qəşəmoğlu: "Xüsusilə oğlanlar arasında orta nikah yaşının artması yaxşı hal deyil"



***Əvvəllər erkən nikahlar problem yaradırdısa, indi də orta nikah yaşının artması ciddi problemə səbəb olub. Azərbaycanda 2023-cü ildə rəsmi nikaha daxil olan kişilərin orta yaş həddi 30,2-yə, qadınların orta yaş həddi isə 25,2-yə yüksəlib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, nikaha daxil olan kişilərin orta yaş həddi heç vaxt bu səviyyəyə yüksəlməyib. 2022-ci ildə qeydə alınan ən yüksək yaş həddi 29.8 yaş olub. Qadınlarda isə 2022-ci ildə orta nikah yaşı 24,9 olub. 1991-ci ildə - Azərbaycan müstəqillik əldə etdiyi zaman rəsmi nikaha daxil olan kişilərin orta yaş həddi 26,8, qadınların orta yaş həddi isə 23,3 olub.***

Sosioloq Əhməd Qəşəmoğlu "Unikal" qəzetinə müsahibəsində bildirib ki, oğlanlar arasında orta nikah yaşının artması yaxşı hal deyil. "Hər bir insan sosioloji varlıq olmaqla yanaşı, bioloji və psixoloji varlıqdır. Azərbaycanın ailə adət-ənənələri, ailə dəyərləri var. Azərbaycanın ailə modeli dünyaya örnəkdir. Azərbaycan kişisi ailəsinə sadiq, ailəsini sevən, hər zaman ailəsini qoruyan bir model kimi dünyada tanınır. Amma son illər qlobal dəyişikliklər Azərbaycan ailə dəyərlərinə də təsirsiz ötüşməyib. Artıq gənclər ailə məsuliyyətindən mümkün qədər yayınmağa çalışırlar", Əhməd Qəşəmoğlu bildirib.

Sosioloq deyir ki, ideal evlilik yaşı kişilər üçün ölkələrə, kənd və şəhərlərə görə dəyişir: "Elə ölkə var ki, orada ideal evlilik yaşı oğlanlar üçün 28 yaş , elə ölkələr də var ki, 25 yaş, yaxud 35 yaş arasında dəyişir. Hətta dağlıq və aran bölgələrində də ideal evlilik yaşı fərqli ola bilər. Azərbaycana gəldikdə, qızların 24 yaşa qədər ailə qurması idealdır. Qızlar ən geci 28 yaşa qədər ailə qurmalıdırlar. Bioloji tələbat və psixoloji tələbat ödənilmədikdə müəyyən xəstəliklər baş qaldırır. Kişilərdə isə ideal evlilik yaşı 28 yaşdır. Kişilər 30-35 yaşa qədər evlənməlidirlər. Kişilərdə 35-dən, qadınlarda 28-dən sonra müəyyən xəstəliklər baş qaldırır. Bu səbəbdən orta nikah yaşının artması həm qızlara, həm də oğlanlara problemlər yaradır".

Ə. Qəşəmoğlu deyir ki, kişilər arasında orta nikah yaşının artmasının səbəbləri müxtəlifdir. Buraya işsizlik, ev problemi və boşanmalar daxildir.

"30 yaşa qədər evlənməyən oğlanların bəziləri ev probleminə görə ailə qurmaqdan çəkinir. Bəzilərinin isə işsizlik problemi var. Amma əsas səbəblərdən biri də boşanmaların artmasıdır. Gənclərin çoxu ətraflarında ailə quranların bir müddətdən sonra boşanmasından ehtiyat edirlər. Onlar qorxurlar ki, eyni taleyi yaşayarlar. Boşanmaların artması orta nikah yaşının artmasına təsir edən əsas amillərdəndir. Mən tələbələrlə söhbət zamanı da bunu eşidirəm. Tələbələrim bildirir ki, onların fikirlərinə ailə quran dostlarının qısa müddətdə boşanması təsir edir", deyə sosioloq bildirib.

Ə. Qəşəmoğlu orta nikah yaşının artmasının demoqrafik fəsadlara da səbəb olduğunu söyləyib.O bildirib ki, bu doğulan uşaqların sayına, sağlam uşaqların doğulmasına təsir edir.

Qeyd edək ki, bu ilin yanvar-iyun aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 22250 nikah və 10430 boşanma halları qeydə alınıb.Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,8-dən 4,4-ə düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb.

Əhməd Qəşəmoğlu nikahların azalmasına gənclərin sərbəst ailə modelinə üstünlük verməsinin də təsir etdiyini söyləyir. Həmsöhbətimiz deyir ki, əvvəllər evlənən oğlanlar gəlini ana-atasının yaşadığı evə gətirirdisə, indi qızlar ayrı evdə yaşamağa üstünlük verirlər:

"Ayrı evi olmayan oğlanlar və qızlar subay qalmağa üstünlük verirlər. Bu da nikaha daxil olanların sayının azalmasına gətirib çıxardır".

Ə. Qəşəmoğlu onu da bildirir ki, doğulan uşaqların sayının azalması nikahların azalması ilə də bağlıdır.

"Ailədə ən ideal uşaq sayı 3-dür. Amma indi ailələr daha çox ikiuşaqlı və təkuşaqlıdır. Bu da demoqrafik məsələyə təsirsiz ötüşmür. Ailədə əsasən oğlan uşaqlarının doğulması gələcəkdə oğlan və qızlar arasında disbalansa, əcnəbilərlə evliliklərə gətirib çıxardacaq. Bunlar demək olar ki, bir-biri ilə zəncirvari bağlı olan məsələlərdir. Odur ki, həm oğlanlar, həm də qızlar arasında orta nikah yaşının artması, nikahların azalması, boşanmaların artması ciddi araşdırılmalı, sosial, psixoloji təsirləri öyrənilməli, qarşılayıcı tədbirlər həyata keçirilməlidir", deyə sosioloq bildirib.

Xatırladaq ki, son illər əsas mübarizə erkən nikahın qarşısının alınması istiqamətində aparılır. Prezident İlham Əliyev Ailə Məcəlləsinə edilən dəyişikliyi təsdiqləyib. Belə ki, əvvəlki qanunvericiliyə əsasən, üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilərdi. Yeni dəyişikliklə qanunun bu müddəası ləğv edilib.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# Zəfər xronikası - Müharibənin 7-ci günü azad olunan ərazilər

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***

"Unikal" hər günü bir qəhrəmanlıq dastanı olan 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.

**3 oktyabr - müharibənin 7-ci günü**

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan Bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!". Bu barədə Prezident, Ali Baş Komandan İlham Əliyev özünün rəsmi tviter səhifəsində bildirib.

- Prezident İlham Əliyev Tərtər rayonunun Talış, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərinin işğaldan azad edilməsi barədə məlumat verib.

- Dövlətimizin başçısı işğaldan azad olunan Madagizin tarixi adını bərpa edərək onun Suqovuşan adlandırıldığını elan edib.

- Müdafiə Nazirliyi müharibənin ilk həftəsində düşmənin ümumi itkilərinin sayını açıqlayıb. Məlumata görə, Ermənistan tərəfi yeddi gündə 230-dək tank və digər zirehli texnika, 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 38 ədəd hava hücumundan müdafiə vasitələri, 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 130-dan çox avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi itirib.

- Baş prokurorluğun məlumatına görə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Baş Prokurorluq tərəfindən 12 cinayət işi başlanıb.

- Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdən videogörüntülər yayılıb.

- Azərbaycanın Müdafiə Nazirliyi düşmənin ağır itkilər verməsini və hərbi texnikasına sarsıdıcı zərbələr endirilməsini əks etdirən yeni görüntülər paylaşıb.

- Müdafiə Nazirliyi: Gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb.

- Ermənistan ordusunun bölmələri Naftalanın Qaşaltı Qaraqoyunlu kəndini, Tərtər rayonunda məcburi köçkünlər üçün salınmış yaşayış kompleksini, Ağcabədi rayonunun Hindarx qəsəbəsini və digər yaşayış məntəqələrini ağır silahlardan və artilleriya qurğularından atəşə tutub. Onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

34_27 IYUI-QARA.qxd 10/3/2024 11:23 PM Page 13



# FHN daha bir obyektin fəaliyyətini dayandırdı



***Samux rayonu, Sərkar kəndində yerləşən "Akyol İnternational" MMC-yə məxsus dəri emalı sexində yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bu barədə FHN məlumat yayıb.

Belə ki:

- elektrik təsərrüfatı "Elektrik Qurğularının Quraşdırılması Qaydası"nın tələblərinə uyğun quraşdırılmayıb;
- obyekt ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmayıb;
- təxliyə planı mövcud deyil və insanların təxliyəsi üçün "Çıxış" sözü yazılmış işıqlı göstəricilər təmin edilməyib;
- taxta konstruksiyalı elementlər odadavamlı məhlulla hopdurulmayıb;
- obyekt "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığorta edilməyib;
- obyektin əsaslı təmiri, yenidən qurulması və genişləndirilməsi zamanı tikinti layihə sənədləri Dövlət Yanğın Nəzarəti Xidməti ilə razılaşdırılmayıb;

Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin kobud pozulması faktları aşkar edilmiş Samux rayonu, Sərkar kəndində yerləşən "Akyol İnternational" MMC-yə məxsus dəri emalı sexinin fəaliyyətinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.

# Qubada qum-çınqıl daşıyanlar cərimələndi



***Yerin təkindən qanunsuz istifadə, o cümlədən qeyri-qanuni qum-çınqıl daşınmasının qarşısının alınması istiqamətində nəzarət tədbirləri daha da gücləndirilib.***

DİN Mətbuat Xidmətinin Quba regional qrupundan "Unikal"a bildirilib ki, Quba Rayon Polis Şöbəsinin, eləcə də ETSN-ın 5 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları bu istiqamətdə rayonun Vəlvələ kəndində birgə tədbir keçiriblər.

Qanun pozuntusuna yol verən şəxslərlə profilaktik söhbətlər aparılıb, barələrində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə protokol tərtib edilib.

# Bakıda və Ağdamda maşın qaçıran şəxslər saxlanıldı



***Oktyabrın 2-də saat 4 radələrində paytaxtın Bakıxanov qəsəbəsi ərazisindən "Toyota Prius" markalı avtomobilin qaçırılması barədə Sabunçu RPİ-nin 13-cü Polis Şöbəsinə məlumat daxil olub.***

"Unikal" xəbər verir ki, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən 37 yaşlı V.Nurullayev Biləsuvar rayonu ərazisində avtomobillə birgə saxlanılıb.

Ağdam Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə isə oktyabrın 2-də Quzanlı qəsəbəsi ərazisindən "Toyota" markalı avtomobil qaçırmaqda şübhəli bilinən 37 yaşlı S.Şükürov Bərdə rayonu ərazisində avtomobillə birgə saxlanılıb.

Faktlarla bağlı araşdırma aparılır.

# Suqovuşanın azad edilməsindən dörd il ötür

***Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinin Ermənistan Silahlı Qüvvələrinin işğalından azad edilməsindən 4 il ötür.***

"Unikal" xatırladır ki, 2020-ci il oktyabrın 3-də Azərbaycan Ordusu hər iki kəndi erməni işğalçılarından təmizləyib. Həmin gün Suqovuşan və Talışda Azərbaycanın üçrəngli şanlı bayrağı qaldırılıb.



Qədim adı Suqovuşan olan, sovet hakimiyyəti illərində Madagiz adlandırılan kənd ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Lakin 1994-cü ilin aprelində yenidən Ermənistan tərəfindən işğal olunub.

Ermənilər Suqovuşanı işğal etdikdən sonra burada hərbi hissələr yaratmışdı. 49 971 saylı hərbi hissə Ermənistan ordusunun Qarabağdakı ən yaxşı hərbi hissələrindən biri hesab olunurdu. Bundan başqa, erməni ordusunun "6-cı müdafiə rayonu" kimi qeyd etdiyi 33 651 nömrəli hərbi hissə də Suqovuşanda mövqe tuturdu.

Suqovuşan döyüşü Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində şimal-şərq cəbhəsində baş verən ən əhəmiyyətli döyüşlərindən biri hesab olunur. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə qoşunlarımız tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

Prezident İlham Əliyev Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında qanun imzalayıb. Dövlət başçısı 2021-ci il oktyabrın 3-də Suqovuşan qəsəbəsində və Talış kəndində Azərbaycan bayrağını ucaldıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 29-da və 2021-ci ilin iyunun 24-də imzaladığı müvafiq sərəncamlara əsasən, bir qrup hərbi qulluqçu "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Qeyd edək ki, oktyabrın 3-də Suqovuşan və Talış kəndləri ilə yanaşı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi də Ermənistan silahlı qüvvələrinin işğalından azad edilib.

# Hakimlər test imtahanı, yazılı imtahan və müsahibə əsasında seçiləcək

***Hakimlərin seçilməsi test imtahanı, yazılı imtahan və müsahibə olmaqla, üç mərhələdən ibarət olacaq.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Məhkəmələr və hakimlər haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Eyni zamanda ilk dəfə hakim vəzifəsinə təyin olunan şəxslər təyin olunduqdan dərhal sonra təlimə cəlb ediləcəklər.

Başqa sözlə, hazırda qüvvədə olan qanuna əsasən, Hakim vəzifəsinə namizədlər yazılı və şifahi imtahan əsasında seçilirlər. Namizədlərin seçilməsi üçün bu imtahanlar Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil edilir. İmtahanların nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Hakimlərin Seçki Komitəsi bu işə özünün formalaşdırdığı ad hoc komissiya cəlb edə bilər. İmtahanlardan müvəffəqiyyətlə keçmiş namizədlər avtomatik şəkildə uzunmüddətli təlim mərhələsinə keçirilirlər. Təlim mərhələsi tədris müəssisəsində təşkil edilir. Təlim mərhələsinə keçirilmiş hakim vəzifəsinə namizədlərin iş yerləri və orta əməkhaqları saxlanılır. Təlim mərhələsinə keçirilmiş işləməyən namizədlərin maddi təminatını Məhkəmə-Hüquq Şurası həyata keçirir. Maddi təminatın məbləği Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir və dövlət büdcəsindən Şuraya ayrılmış vəsait hesabına ödənilir. Təlim mərhələsi başa çatdıqdan sonra hər bir namizəd qiymətləndirilir. Namizədin qiymətləndirilməsi tədris müəssisəsi tərəfindən təqdim olunmuş tədrisin nəticələri və namizədin Hakimlərin Seçki Komitəsi üzvləri ilə yekun müsahibəsinin əsasında həyata keçirilir. Namizədlərin qiymətləndirilməsi bal sistemi ilə aparılır. Namizədlər Hakimlərin Seçki Komitəsi tərəfindən topladıqları ballara uyğun sıralanırlar. Namizədlərin qiymətləndirilməsinin nəticələri Məhkəmə-Hüquq Şurasına təqdim olunur. Məhkəmə-Hüquq Şurası namizədlərin vakant hakim vəzifələrinin sayına müvafiq olaraq hakim vəzifəsinə təyin edilməsi barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdimat verir. Tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış namizədlər ədliyyə orqanlarına inzibati vəzifəyə və ya prokurorluq orqanlarına prokurorluq işçisi kimi xidmətə götürülə, hakim vakansiyası yarandıqda isə hakim vəzifəsinə təyin edilə bilərlər. Qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış şəxslər 5 il müddətində hakim vəzifəsinə namizədlərin seçilməsi üçün imtahanda iştirak edə bilməzlər.

Layihəyə əsasən, hakim vəzifəsinə namizədlər test imtahanı, yazılı imtahan və müsahibə əsasında seçiləcəklər. İmtahanlar və müsahibə



Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil olunacaq. İmtahanlar və müsahibənin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndiriləcək. Hakimlərin Seçki Komitəsi bu işə özünün formalaşdırdığı ad hoc komissiyanı cəlb edə bilər. Hakimlərin Seçki Komitəsi imtahanlardan və müsahibədən müvəffəqiyyətlə keçmiş namizədləri topladıqları ballara uyğun sıralayacaq. Namizədlərin qiymətləndirilməsinin nəticələri Məhkəmə-Hüquq Şurasına təqdim olunacaq. Məhkəmə-Hüquq Şurası namizədlərin vakant hakim vəzifələrinin sayına müvafiq olaraq hakim vəzifəsinə təyin edilmələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdimat verəcək. Qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış şəxslər 5 il müddətində hakim vəzifəsinə namizədlərin seçilməsi üçün imtahanlarda və müsahibədə iştirak edə bilməzlər.

Vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydaları Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən ediləcək.

# "ŞAHMARIN EŞQ ƏSƏRİ" adlı kitabın təqdimatı keçirildi

***30 sentyabr 2024-cü il tarixində Naxçıvan Gənclər Mərkəzində keçirildi.***

"VƏTƏN FƏDAİLƏRİ" adlı tədbirdə yazıçı-publisist, AYB-nin və AJB-nin üzvü, "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin rəhbəri Manya Səxavətqızının müəllifi olduğu "ŞAHMARIN EŞQ ƏSƏRİ" adlı kitabın təqdimatı keçirildi. Səyyad Məmmədovun aparıcılığı, dövlət rəsmilərinin, şəhid ailələrinin, qazilərin, ƏÜO-nun zabit heyətinin, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının, eləcə də digər qonaqların iştirakı ilə keçirilən tədbirdə öncə Əlahiddə Ümumqoşun Ordunun Hərbi orkestrinin müşayəti ilə ölkəmizin suverenliyi və müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca isə sözlərində də deyildiyi kimi minlərlə canın fəda olduğu Azərbaycan Dövlət Himni səslənib.



"ŞAHMARIN EŞQ ƏSƏRİ" kitabının müəllifi Manya Səxavətqızı qonaqları salamlayaraq tədbir və kitab haqqında ətraflı məlumat verib. Ardınca isə digər qonaqlar; Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin mətbuat katibi Günay Yelmarqızı, Şahmar Quliyevin anası Səkinə Quliyeva, "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin ümumi dəstəkçisi Şahin Məmmədov, Şəhid qardaşı və Ali Məclisin deputatı Üzeyir Məmmədov, Şəhid atası Məhəmməd Nəcəfov, Şəhid anaları Rəna Quliyeva,Pakizə Səfərova, Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigar, Şahmarın kursant yoldaşı mayor Yusif Nəcəfov çıxış etdi. Muğam müsabiqəsinin qalibi Murad Laçının ifasında sözləri Manya Səxavətqızına, musiqisi Yaqut Almaza məxsus olan "Müqəddəs Eşqim" adlı mahnı səsləndi. Şahmar Quliyevin adını yaşatmaq üçün "ŞAHMARIN EŞQ ƏSƏRİ" kitabının ərsəyə gəlməsinin təşəbbüskarı olan şəhidin xanımı Gülnarə Quliyeva bütün qonaqlara təşəkkür edərək ən çətin günündə yaşadığı qürurdan danışdı. Sonda bütün qonaqlara kitab bağışlanılaraq xatirə şəkili çəkilib və Şəhidlər xiyabanı ziyarət olundu.

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi "Eternity-2024" təlimində iştirak edib

***Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə Gürcüstanda keçirilən "Eternity-2024" çoxmillətli komanda-qərargah təlimi başa çatıb.***

"Unikal" xəbər verir ki, təlimin keçirilməsində əsas diqqət Azərbaycan, Türkiyə və Gürcüstanın silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsinə yönəldilib. Hər üç ölkənin hərbi qulluqçuları və aidiyyatı dövlət qurumlarının nümayəndələri Vaziani təlim mərkəzində strateji əhəmiyyətli, regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları yerinə yetiriblər.

Azərbaycan və Gürcüstan Respublikalarından keçən İxrac boru kəmərlərinin təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması ilə bağlı Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəis müavini, polkovnik İsfəndiyar Mehbalıyev ilə Gürcüstan Respublikası Daxili İşlər Nazirliyinin Strateji İxrac Boru Kəmərlərinin mühafizəsi departamentinin direktoru, polkovnik Zurab Çabasvili arasında ikitərəfli görüş keçirilmişdir. Görüş zamanı qurumlararası təcrübə mübadiləsi və



ikitərəfli əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

İkitərəfli görüş qarşılıqlı xatirə hədiyyələrinin təqdim olunması ilə yekunlaşıb.

# Prokurorluq məktəblinin qətli ilə bağlı məlumat yaydı

***Oktyabrın 2-si Sabunçu rayonu ərazisində yetkinlik yaşına çatmayan R.B-nin (şərti) almış olduğu xəsarətdən müalicə aldığı xəstəxanada ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Sabunçu rayon prokurorluğundan "Unikal"a bildirilib ki, araşdırmalarla yetkinlik yaşına çatmayan K.N-nin (şərti) rayonun Zabrat qəsəbəsi ərazisində aralarında yaranmış mübahisə zamanı bıçaqla bud nahiyəsinə xəsarət yetirməsi nəticəsində R.B-nin (şərti) müalicə aldığı xəstəxanada ölməsinə əsaslı şübhələr müəyyən edilib.




Faktla bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsilə cinayət işi başlanıb, K.N (şərti) iş üzrə şübhəli şəxs qismində tutulub.

Hazırda ibtidai istintaq davam edir.

Əlavə edək ki, qətlə yetirilən şəxs Sabunçu rayonu 71 saylı məktəbin 11-ci sinif şagirdidir. Hadisəni törədən şəxs isə məktəbli deyil, ötən il IX sinifdən sonra təhsilini davam

# Gömrük orqanlarında xidmətə qəbula dair yeni prosedur müəyyənləşdi

***Sınaq müddəti müəyyən edilmiş şəxslər gömrük orqanlarında müvafiq vəzifəyə xüsusi rütbə verilmədən təyin olunacaq və onlar həmin müddət ərzində yalnız vəzifə maaşı alacaqlar.***



"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan Gömrük orqanlarında xidmət haqqında Əsasnaməyə təklif olunan dəyişikliklədə əksini tapıb.

Qanuna əsasən, gömrük orqanlarında xidmətə qəbul zamanı rəhbər vəzifələrə təyin olunanlara və elmi dərəcəsi olan şəxslərə sınaq müddəti müəyyən edilmir. Təklif olunan dəyişikliyə əsasən, həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, gömrük orqanlarında daimi qulluğa qəbul ediləcəklər.

# Qazi məhkəmə zalında həbs olundu

***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik vasitələri saxlama, daşıma) maddəsi ilə təqsirli bilinən Səfixanov Əziz Eldar oğlunun sonuncu məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, ötən prosesdə dövlət ittihamçısı Ə. Səfixanovun 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Səfixanovun vəkili çıxış edərək müvəkkilinin 44 günlük Vətən Müharibəsi iştirakçısı olduğunu, narkotik vasitələrdən istifadə etdiyini, satışı ilə məşğul olmadığını bildirib. Sonra son sözlə çıxış edən Əziz Səfixanov müharibədən qayıtdıqdan sonra cərrahiyə əməliyyatı olduğunu, bu səbəbdən də ağrılarına görə narkotik vasitə istifadə etdiyini qeyd etdi.

Xatırladaq ki, külli miqdarda narkotik maddə ittihamı ilə təqsirləndirilən Əziz Səfixanov barəsində ibtidai istintaq dövründə polis nəzarəti altına vermə qətimkan tədbiri seçilib. Hakim müşavirədən qayıtdıqdan sonra hökmü elan edib. Əziz Səfixanov barəsində həbs-qətimkan tədbiri dəyişdirilməklə onun barəsində 5 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilib.

Qeyd edək ki, Əziz Səfixanov 44 günlük Vətən Müharibəsində 2 dəfə yaralanıb.

***Seymur Əli***

# Ötən ay 3 nəfər zəhərlənərək ölüb

***Sentyabr ayı ərzində Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə zəhərlənmə səbəbilə 101 nəfər qəbul edilib.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, şöbəyə qəbul edilən xəstələrdən 40 nəfər dərmandan, 38 nəfər sirkə turşusundan, 9 nəfər ilan sancmasından, 4-ü fosfor üzvi birləşmələrdən, 2-si spirtli içkidən, 1 nəfər göbələkdən zəhərlənən şəxslərdir.

Həmçinin 6 nəfər allergik reaksiya, 1 nəfər isə anaflaksiya səbəbilə şöbəyə yerləşdirilib.

Həkimlərin səylərinə baxmayaraq, zəhərlənən şəxslərdən 3-ü (2 nəfər kişi cinsli, 1 nəfər qadın cinsli) dünyasını dəyişib.

Ölüm halları sirkə turşusu, psixotrop dərman zəhərlənmələrindən qeydə alınıb.

# Bu, alkoqoldan psixi asılılıq yaradır

***Emosional sıxıntıya görə içmək istəyi sizin alkoqol istəyiniz olduğunun açıq siqnalıdır.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu britaniyalı psixoloq Coanna Cons deyib.

Cons hesab edir ki, narahatlığı aradan qaldırmaq, çətin gündən sonra dincəlmək üçün spirtli içki qəbul etmək həmişə spirtlə bağlı probleminizin olduğunu və ya yaxın gələcəkdə problem yarana biləcəyini göstərir.

"Əgər siz emosiyalarınızı idarə etmək üçün içkidən istifadə edirsinizsə, bu, alkoqoldan psixi asılılıq yaradır", - deyə mütəxəssis qeyd edib.

Bundan əlavə, o, alkoqol tolerantlığının inkişafını həyəcan siqnalı adlandırıb: "Cəmiyyətdə belə qəbul edilir ki, içki içməmək və sərxoş olmamaq yaxşıdır. İnsan özü də fikirləşir ki, bir stəkan şərabdan sərxoş olmağı dayandırıbsa, deməli, bədənində hər şey qaydasındadır", - Cons deyir. Əslində, alkoqolun zərəri həmişə eynidir, lakin bədən böyük dozada spirtə uyğunlaşa bilir.

Psixoloq həmçinin qeyd edib ki, əgər içmək vərdişi işə, şəxsi münasibətlərə zərər verirsə və ya yuxuya mane olursa, asılılığın müalicəsini nəzərdən keçirməyə dəyər.

***Gülayə Mecid***

34_27 IYUl-QARA.qxd 10/3/2024 11:23 PM Page 15





## Qarabağ separatçısı Simonyana salam verdiyi üçün töhmət aldı

***Qarabağdakı separatçı rejimin keçmiş "spikeri" Artur Tovmasyana partiyası tərəfindən töhmət verilib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

O, Yerablur hərbi qəbiristanlığında Ermənistan prezidenti Vaan Xaçatryan və parlamentin sədri Alen Simonyanla söhbət etdiyi üçün partiyadan "sarı vərəqə" alıb.

Tovmasyan isə bildirib ki, onlar sadəcə salamlaşıb, bir-birlərinin əhvalını soruşublar.

***Ağarza Elçinoğlu***

## İsrail Nəsrullahın kürəkənini də öldürüb

***İsrailin Suriyanın paytaxtı Dəməşqdə bir müddət əvvəl öldürülən Hizbullah baş katibi Həsən Nəsrullahın kürəkənini öldürdüyü açıqlanıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Nəsrullahın kürəkəni Həsən Kasirin dünən Dəməşqin Mezzeh rayonunda İsrail hava qüvvələrinin 3 mərtəbəli binaya endirdiyi zərbə nəticəsində həlak olduğu bildirilib.

Həmçinin, Kasirin həm də dünən İsrail ordusu tərəfindən Livanın paytaxtı Beyruta endirdiyi hava hücumunda öldürülən Hizbullahın yüksək səviyyəli komandiri Məhəmməd Cəfər Kasirin qardaşı olduğu qeyd olunub.

Qeyd edək ki, Dəməşqə hava hücumu nəticəsində 3 nəfər ölüb, çoxlu sayda insan yaralanıb.

***Zərifə Nağıyeva***

## İran İsraillə bağlı BMT-yə çağırış etdi

***İran BMT Təhlükəsizlik Şurasını İsrailin Livan, Qəzza və Suriyaya qarşı təcavüzünü dayandırmaq və Yaxın Şərq regionunda genişmiqyaslı müharibənin qarşısını almaq üçün müdaxilə etməyə çağırıb.***

"Unikal" xəbər verir ki, bu barədə İranın BMT Təhlükəsizlik Şurasındakı missiyası məlumat yayıb.

"İran İslam Respublikası bir daha Təhlükəsizlik Şurasını İsrailin Livan, Qəzza və Suriyaya qarşı davam edən təcavüz və hərbi cinayətlərini dayandırmaq və vəziyyətin genişmiqyaslı regional müharibəyə çevrilməsinin qarşısını almaq üçün təcili və qəti şəkildə müdaxilə etməyə çağırır", - deyə nümayəndə Əmir Səid Təhlükəsizlik Şurasının sədri və Birləşmiş Millətlər Təşkilatının Baş katibinə məktubda yazıb.

***Ağarza Elçinoğlu***

# Avropa Parlamenti fransızı Cənubi Qafqaz üzrə nümayəndə seçdi

***Avropa Parlamenti Cənubi Qafqaz ölkələri ilə əlaqələr üzrə nümayəndə heyətinin sədrini və iki sədr müavinini seçib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. Məlumata görə, nümayəndə heyətinin rəhbəri latviyalı deputat Nils Uşakovs seçilib. Fransa parlamentinin deputatı Natali Loizeau və polşalı deputat Mixal Sterba nümayəndə heyətinin vitse-prezidentləri təyin olunublar.

Cənubi Qafqaz nümayəndə heyətinin sədri bu vəzifəni icra etməyi böyük şərəf hesab edib və göstərilən



etimada görə təşəkkür edib. O, regionun bir çox münaqişələrə səhnə olduğunu qeyd edərək, hazırda Aİ ilə münasibətlərə birbaşa təsir göstərən yeni geosiyasi mühitin yarandığını vurğulayıb.

"Cənubi Qafqaz iqtisadi, strateji və iqtisadi potensiala malikdir və təhlükəsizlik, qanunun aliliyi və ictimai azadlıqlar sahələrində dialoq və əməkdaşlığı gücləndirmək vacibdir. Mən sizinlə Cənubi Qafqazın daha firavan gələcəyi üçün çalışacağam", - deyə Nils Uşakovs seçildikdən sonra Avropa Parlamentindəki həmkarlarına bildirib.

Vitse-prezidentlər də öz vəzifələrini icra etməyi böyük şərəf hesab ediblər.

***Ağarza Elçinoğlu***

# Gürcüstan prezidentinin imtina etdiyi qanunu o imzaladı

***Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili LGBT hüquqlarını məhdudlaşdıran qanunları, o cümlədən "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanunu imzalayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Exo of Caucasus" məlumat yayıb.

Papuaşvili öz bəyanatında təsdiq edilmiş qanunları "insan üçün ən qiymətli olanı - ailəni və uşaqları qoruyan" qanunu adlandırıb. "Bu qanun bütün vətəndaşların hüquqlarını, o cümlədən ifadə azadlığını qoruyur ki, başqalarının hüquqları pozulmasın ki, bu da əsl demokratiyanın mahiyyəti və ideyasıdır", - deyə spiker bildirib.

O, həmçinin qeyd edib ki, hakimiyyət "bəzi xarici tərəfdaşların" tənqidinə hazırdır. Xatırladaq ki, ötən gün Gürcüstan prezidenti Salome Zurabişvili respublikada LGBT təbliğatını qadağan edən qanunu imzalamaqdan imtina edib.

***Seymur Əli***



# Zaxarova Ermənistanın KTMT-dəki fəaliyyətsizliyindən danışdı

***Rusiya tərəfi Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində fəaliyyətinin davamlı olaraq dondurulmasından təəssüflənir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova deyib.

"Biz Ermənistanın KTMT çərçivəsində fəaliyyətini davamlı olaraq dondurmasından və ya boykot etməsindən təəssüflənirik. Onun üçün nəyin



vacib olub-olmadığına dövlət özü qərar verir.

Biz hesab edirik ki, KTMT təhlükəsizlik sahəsində olduğu kimi, Aİİ iqtisadi sahədə də faydalıdır. Biz bu iki strukturda Ermənistanla qarşılıqlı fəaliyyət üçün heç bir maneə görmürük, lakin bu, hər hansı digər suveren dövlət kimi həmin ölkənin milli siyasətindən gedir", - deyə diplomat əlavə edib.

***Ağarza Elçinoğlu***

# "İranın nüvə obyektləri və rəhbərliyi vurulmalıdır" - Naftali Bennet

***"İsrail Müdafiə Qüvvələri (IDF) nüvə obyektlərini, neft sənayesini və İran rəhbərliyini vurmalıdır".***

"Unikal" xəbər verir ki, bunu İsrailin keçmiş baş naziri Naftali Bennet "The Wall Street Journal" a (WSJ) müsahibəsində deyib.

"Hizbullah və HƏMAS müvəqqəti olaraq iflic vəziyyətindədir, İran isə həssas vəziyyətdədir. İndi onlar çılpaqdırlar, özlərini müdafiə etməyə imkanları yoxdur. İsrail Yaxın Şərqin simasını dəyişmək üçün son 50 ildə ən böyük fürsətə malikdir... İndi onların başına vurmağın vaxtıdır", - deyə o, çağırıb.

***Gülayə Mecid***



# "Almaniya regionda sülhün bərqərar olması prosesində səy göstərir" - Paşinyan

***Almaniya Ermənistanın etibarlı və sabit tərəfdaşlarından biridir.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan Almaniya Federativ Respublikasının kansleri Olaf Şoltsa milli bayram - Birlik Günü münasibətilə təbrik məktubunda yazıb.

"Biz dövlətlərimiz arasında yüksək səviyyəli siyasi dialoqu yüksək qiy-



mətləndirir və suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan regionumuzda sülh və sabitliyin bərqərar olması prosesində Almaniyanın səylərini yüksək qiymətləndiririk", - deyə Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

34_27 IYUl-QARA.qxd 10/3/2024 11:24 PM Page 16



# AFFA 4 klubu cərimələdi

***AFFA Azərbaycan Premyer Liqasında çıxış edən 4 klubu cərimələyib.***

”Unikal” xəbər verir ki, bu barədə qərar qurumun İntizam Komitəsinin növbəti iclasında qəbul olunub.

Premyer Liqasının VIII turunun “Araz-Naxçıvan” - “Səbail” oyununda 4 futbolçusu sarı vərəqə aldığına görə paytaxt təmsilçisi 700 manat cərimələnib.

Sentyabrın 28-də baş tutan ”Neftçi” - ”Sumqayıt” görüşündə 6 futbolçusu sarı vərəqə cəzası aldığından Sumqayıt komandası 700 manat cərimələnib. Eyni məbləğdə cərimə ”Şamaxı” və ”Turan Tovuz”a da şamil edilib. Buna səbəb sentyabrın 29-da Şamaxıda sözügedən komandalar arasında keçirilən görüşdə meydan sahiblərinin 4, Tovuz təmsilçisinin isə 5 futbolçusunun sarı vərəqə ilə cəzalandırılması olub.

# Messinin komandası çempion oldu

***ABŞ-da MLS müntəzəm çempionatının qalibi bəlli olub.***

”Unikal” xəbər verir ki, ”İnter Mayami” çempionluğunu rəsmiləşdirib.



Lionel Meesinin komandası 32-ci turda səfərdə ən yaxın izləyicisi ”Kolumbus Kryu”ya qalib gələrək (3:2) buna nail olub. Oyunda Messi dubla (45, 45+5) imza atıb. ”İnter Mayami”nin digər qolunu isə Luis Suares (48) vurub. ”Kolumbus Kryu”dan Dieqo Rossi (46) və Kuço Ernandes (61) fərqlənib.

Bu qələbədən sonra xallarının sayını 68-ə çatdıran ”İnter Mayami” mövsümün bitməsinə 2 tur qalmış ABŞ çempionu olub.

Qeyd edək ki, ”İnter Mayami”də Messi və Suaresdən başqa, onların ”Barselona”dakı sabiq komanda yoldaşları Serxio Busketslə Jordi Alba da çıxış edir.

# Sergen Yalçından Nuri Şahinlə bağlı qərəzli açıqlama

***Türkiyəli sabiq futbolçu Sergen Yalçın “Borrusiya”nın (Dortmund) baş məşqçisi Nuri Şahinlə bağlı qərəzli açıqlama verib.***

“Qafqazinfo” xəbər verir ki, o, çalışdırıcının uğurlarının səbəbini anlamadığını bildirib.



“Dortmundda məşqçi olmaq bu qədər asandırmı? Antalyada iki il çalış, heç nə etmə, uğur qazanma, sonra “Borussiya”da məşqçi ol. Məsələn, bu necə olur? 10 il Anadoluda çalışdım və hamısında uğur qazandım. Sonra “Beşiktaş”a gələndə dedilər təcrübəsi yoxdur”.

Qeyd edək ki, türkiyəli mütəxəssis Nuri Şahin bu ilin iyun ayında “Borussiya”nın baş məşqçisi olub.

Onun komandasının iki gün əvvəl Çempionlar Liqasının əsas mərhələsində “Seltik”i (7:1) böyük hesabla məğlub etməsi dünya mediasının gündəminə düşüb.

# "Portuqaliyada bir aslan var" - "Benfika"da Kerem Aktürkoğlu fırtınası

***”Qalatasaray”dan ”Benfika”ya transfer olunan Türkiyə millisinin üzvü Kerem Aktürkoğlu Portuqaliya təmsilçisində azarkeşlərin sevimlisinə çevrilib.***

Həmyerlisi Orkun Kökçü ilə komanda yoldaşı olan Aktürkoğlu, yeni klubunda qol və assistlərini sıralamağa davam edir. Apasport.az xəbər verir ki, türkiyəli futbolçunun son ”qurban”ı İspaniya nəhəngi “Atletiko Madrid” olub.

Aktürkoğlu ”Benfika”nın 4:0 hesablı üstünlüyü ilə başa çatan Çempionlar Liqası matçında La Liqa nəhənginə qol vurub.

Matçda komandasının ilk qoluna imza atan Kerem Aktürkoğlunun uğurlu çıxışı Portuqaliya və İspaniya mətbuatında gündəm olub.

Kerem bu mövsüm ”Benfika”da oynadığı 5 oyunun hamısında qola töhfə verməyi bacarıb.

Türk futbolçu bu matçlarda 4 qol vurub, 2 məhsuldar ötürmə edib.

Qeyd edək ki, ”Benfika” - ”Atletiko Madrid” matçında



Türkiyə millisinin daha bir üzvü Orkun Kökçü komandasının 4-cü qolunun müəllifi olub.

Kökçü həmçinin matçın ən yaxşı oyunçusu mükafatına layiq görülüb.

# "Bayer"dən Virtzə rekord transfer haqqı

***”Bayer Leverkuzen” Avropa nəhənglərinin heyətinə qatmaq istədiyi Florian Virtzin transfer qiymətini müəyyənləşdirib.***

Apasport.az xəbər verir ki, Leverkuzen təmsilçisi Virts üçün 150 milyon avro tələb edir. Bu barədə ”Bild” nəşri məlumat yayıb. Bundesliqa çempionu futbolçusunu bu qiymətə transfer etsə, klub rekordunu qıracaq.Əvvəlki rekord 80 milyon avroya ”Çelsi”yə keçən Kai Havertsə məxsusdur.



Xatırladaq ki, 4 nəhəng 21 yaşlı futbolçunu heyətinə qatmaq istəyir. Ulduz futbolçu ilə maraqlanan klublar arasında Bundesliqadan ”Bavariya”, Premyer Liqadan ”Mançester Siti” və ”Arsenal”, La Liqadan isə ”Real Madrid” var.

”Barselona” isə maliyyə problemlərinə görə bu transferdən geri çəkilib.

Qeyd edək ki, 2020/21 mövsümündə əsas komandaya yüksələn Virtz karyerası ərzində 189 matçda 61 qol vurub, 57 məhsuldar ötürmə edib.

# Arda Gülerin məyusluğu...

***”Real”ın türk futbolçusu Arda Güler Çempionlar Liqasının Liqa mərhələsinin 2-ci turunda ”Lill”lə matçda (0:1) əldən verdiyi qol epizodlarına görə məyus olub.***



QOL.az xəbər verir ki, bu barədə ”Defense Central” məlumat yayıb.

Arda görüşün 67-ci dəqiqəsində Eduardo Kamavinqanın əvəzinə meydana çıxıb. O, fərqlənə bilməsə də, hücum xəttindəki aktivliyinə görə diqqəti öz üzərinə çəkib.

19 yaşlı yarımmüdafiəçi matçda 2 dəfə qol vurmağa çox yaxın olub. O, ilk epizodda başla fərqlənməyə çalışıb, lakin qol vura bilməyib. İkinci epizodda da başla zərbə endirən Ardanın qoluna ”Lill”in qapıçısı Lukas Şevalyer mane olub.

Xəbərdə bildirilir ki, Arda Güler əldən verdiyi qol epizodlarına görə məyusluq yaşayıb. Ona komanda yoldaşı Antonio Rüdiger dəstək olub. Almaniyalı futbolçu oyun bitdikdən sonra Ardanı qucaqlayıb və özünün də qol epizodunu qaçırdığını deyib: ”Çox təəssüf ki, son dəqiqələrdə ikimiz də baş zərbəsindən qol vura bilmədik”.

Xatırladaq ki, Arda ötən ilin yayında Madrid təmsilçisinə keçib. O, aldığı ardıcıl zədələr səbəbindən yalnız bu ilin yanvar ayında komandada debüt etməyi bacarıb. Türkiyə millisinin üzvü cari mövsümdə 9 matça çıxıb, lakin fərqlənə bilməyib.

# Əliyar Ağayev Çempionlar Liqasının oyununu idarə etdi

***Azərbaycanın FİFA referisi Əliyar Ağayev Çempionlar Liqasında növbəti oyununu idarə edib.***



O, qitənin 1 nömrəli klub turnirinin Liqa mərhələsinin 2-ci turunda çərçivəsində keçirilən “Şturm” (Avstriya) - “Brügge” (Belçika) oyununun baş hakimi olub.

Matç qonaqların 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Belçika təmsilçisinə qələbə gətirən yeganə qolu 23-cü dəqiqədə Kristos Tzolis vurub.

Oyunun gedişində həmyerlimiz meydan sahiblərinin 5, qonaqların isə 1 futbolçusunu sarı vərəqə ilə cəzalandırıb.

Qeyd edək ki, Klaqenfurt şəhərində yerləşən “Verterze” stadionunda keçirilən matçda Əliyar Ağayevə Zeynal Zeynalov və Akif Əmirəli kömək ediblər. Dördüncü hakim funksiyasını Tural Qurbanov yerinə yetirib.

# Juninyo ən çox qol vuran futbolçuların siyahısında



***“Qarabağ”ın futbolçusu Juninyo 2024-cü ildə ən çox qol vuran futbolçular sırasında yer alıb.***

Bu barədə Beynəlxalq Futbol Federasiyası Tarixi və Statistikası (İFFHS) məlumat yayıb.

Cədvələ 22 və daha çox qol vuran 52 oyunçu düşüb. Ağdam təmsilçisinin hücumçusu Olavio Juninyo isə 23 qolla 33-cü sırada yer alıb.

Qeyd edək ki, o, Premyer Liqada 9, ölkə kubokunda 5, avrokuboklarda 9 qola imza atıb.

Siyahıya İsveç millisinin və “Sportinq” klubunun üzvü Viktor Qyökeres başçılıq edir. O, 40 qolla liderliyi ələ keçirib.

# “Qarabağ” “Malmö”yə də uduzdu

***Bu gün UEFA Avropa Liqasının Liqa mərhələsində 2-ci turun oyunları keçirilir.***

”Unikal” xəbər verir ki, turnirdəki təmsilçimiz “Qarabağ” öz meydanında İsveç çempionu “Malmö”nü qəbul edib. Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən oyunu Yunanıstandan olan hakimlər briqadası idarə edib. Matç ”Qarabağ”ın 1:2 hesablı məğlubiyyəti ilə başa çatıb.